# Hüququndan keçən əsgər,
# Hərə bir qəhrəman oldu!



# BAKI DÖVLƏT UNİVERSİTETİ
# FİLOLOGİYA FAKÜLTƏSİ
# TƏLƏBƏ ELMİ CƏMİYYƏTİ

# "II Qarabağ müharibəsi: Tarix yazan qəhrəmanlar" adlı esse müsabiqəsinin materialları



BAKI-2020

**TƏRTİBÇİLƏR:** **Gülnar AXUNDOVA**

**Məleykə MİRZƏLİ**

**"II Qarabağ müharibəsi: Tarix yazan qəhrəmanlar"**

**adlı esse müsabiqəsinin materialları. Bakı, 2020, 51 səh.**

BDU, Filologiya fakültəsi Tələbə Elmi Cəmiyyəti tərəfindən 7-30 noyabr tarixlərində keçirilən "II Qarabağ müharibəsi: Tarix yazan qəhrəmanlar" adlı esse müsabiqəsində 20-dən çox tələbə iştirak etmiş və 3 nəfər qalib seçilmişdir. Bu kitabda ən yaxşı 13 esse toplanmışdır.

**©Filologiya-TEC**



**Azərbaycan Respublikasında Zəfər Gününün təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

XX əsrin 80-ci illərinin sonları-90-cı illərinin əvvəllərində Ermənistan Azərbaycanın tarixi torpaqlarına açıq formada ərazi iddiaları ilə çıxış etmiş və ölkəmizə qarşı hərbi təcavüzə başlamışdır. Həmin dövrdə Azərbaycanda hökm sürən hərc-mərclikdən istifadə edən Ermənistan torpaqlarımızın 20%-ni işğal etmiş, Ermənistanın həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində 1 milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin düşmüşdür.

Azərbaycana qarşı hərbi təcavüzün nəticələrinin aradan qaldırılması və BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin həyata keçirilməsi üzrə 30 ilə yaxın davam edən danışıqlar prosesi Ermənistanın destruktiv mövqeyinə görə nəticə verməmişdir.

2019-cu ildən etibarən isə Ermənistan hərbi-siyasi rəhbərliyinin bir-birinin ardınca verdiyi təxribatçı bəyanatlar və atdığı addımlar danışıqlar prosesini məqsədyönlü şəkildə tamamilə pozmuşdur. Bununla Ermənistan bir daha özünün əsl məqsədinin mövcud status-kvonu möhkəmləndirməkdən və Azərbaycan ərazilərini ilhaq etməkdən ibarət olduğunu nümayiş etdirmişdir.

Ermənistanın qəbul etdiyi təcavüzkar və hücum xarakterli milli təhlükəsizlik strategiyası və hərbi doktrina, işğal edilmiş ərazilərdə qeyri-qanuni məskunlaşdırma siyasətini genişləndirməsi, “yeni ərazilər uğrunda yeni müharibə” çağırışı, mülki şəxslərdən ibarət “könüllü dəstələri” yaratmaq qərarı, 2020-ci il iyulun 12-də Ermənistan–Azərbaycan dövlət sərhədinin Tovuz istiqamətində təxribat törətməsi, eyni zamanda, bütövlükdə qoşunların təmas xəttində gərginliyi artırması, cəbhə xəttinə yaxın ərazilərdə qoşunlarını cəmləşdirməsi, böyük həcmdə silah-sursat toplaması Ermənistanın genişmiqyaslı hücuma hazırlaşdığını göstərirdi.

Azərbaycan dəfələrlə bəyan etmişdi ki, Ermənistan qoşunlarının işğal olunmuş ərazilərdə qanunsuz mövcudluğu regionda sülh və təhlükəsizlik üçün əsas təhdiddir və hər zaman vəziyyətin gərginləşməsinə səbəb ola bilər.

## II QARABAĞ MÜHARİBƏSİ: TARİX YAZAN QƏHRƏMANLAR

Ermənistanın təxribatına və növbəti hərbi təcavüzünə cavab olaraq, Azərbaycan xalqı torpaqlarımızın işğaldan qurtarılması, Ermənistanın sülhə məcbur edilməsi, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinin tələblərinin yerinə yetirilməsi, məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması və ədalətin bərpası üçün Vətən müharibəsinə başladı. Bu müqəddəs amal uğrunda bütün Azərbaycan xalqı səfərbər və həmrəy oldu.

44 gün sürən hərbi əməliyyatlar nəticəsində müzəffər Azərbaycan Ordusu Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərlərini, Azərbaycan xalqının tarixində, mədəniyyətində və qəlbində xüsusi yeri olan, Qarabağın tacı sayılan Şuşa şəhərini, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələrini, Xocavənd rayonunun Hadrut qəsəbəsini və bir çox kəndlərini, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndləri daxil olmaqla, ümumilikdə, 300-dən çox yaşayış məntəqəsini, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəklikləri işğaldan azad etdi.

Rəşadətli Azərbaycan əsgər və zabitləri addım-addım irəliləyərək, Ermənistanın uzun illər ərzində qurduğu mühəndis-istehkam sistemlərini yarıb keçdilər, torpaqlarımız qəhrəman əsgər və zabitlərimizin, şəhidlərimizin qanı və canı bahasına azad edildi.

Azərbaycanın hərbi sahədə qazandığı qələbələr, xüsusilə Şuşanın düşmən əsarətindən qurtarılması müharibənin taleyində həlledici rol oynadı, Ermənistanın öz məğlubiyyətini etiraf etməsi və kapitulyasiyası ilə nəticələndi, Ermənistanı Kəlbəcər, Ağdam və Laçın rayonlarını Azərbaycana qaytarmağa məcbur etdi.

Azərbaycan xalqının əzmi və iradəsi, iqtisadi gücü, müasir ordu quruculuğu və xalq-iqtidar birliyi ölkəmizin qələbəsini təmin edən mühüm amillər oldu. Ulu əcdadlarımızın zəngin dövlətçilik və hərb tarixindən ilhamlanan Azərbaycan xalqı daha bir şanlı qəhrəmanlıq salnaməsi yazaraq, özünün qalib xalq olduğunu bütün dünyaya sübut etdi və düşmən üzərində tarixi zəfər çaldı.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, xalqımızın qüdrətinin və milli qürurumuzun təntənəsinə çevrilən, dövlətimizin nüfuzu və gələcək inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edən bu misilsiz qələbənin əbədiləşdirilməsi məqsədilə qərara alıram:

1. Hər il noyabrın 8-i Azərbaycan Respublikasında Zəfər Günü kimi təntənəli şəkildə qeyd edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 3 dekabr 2020-ci il***

# MÜNDƏRİCAT


1. Gülay TAHİRLİ ....................................................................................................7
2. Nəzakət RƏHİMOVA.......................................................................................11
3. Aynurə ABBASZADƏ......................................................................................15
4. Məleykə MİRZƏLİ..........................................................................................19
5. Türkan HÜSEYNOVA......................................................................................25
6. Lumu İSPƏNDİYARZADƏ...............................................................................27
7. Şəhla ƏHMƏDOVA..........................................................................................31
8. Ülviyyə MİKAYILOVA.....................................................................................35
9. Sürəyya BAYRAMOVA ....................................................................................37
10. Gülşən ADIŞOVA.............................................................................................39
11. Ayla ZƏKİYEVA...............................................................................................43
12. Ülviyyə HƏSƏNZADƏ......................................................................................47
13. Şayəstə AĞAYEVA...........................................................................................49

# QALİBLƏR

### I YER – Gülay TAHİRLİ

Bir-birinə aid olanları aralamaq olar, amma ayırmaq olmaz. Hər şey bir gün mütləq aid olduğuna qovuşur. Azərbaycanın əbədi, əzəli torpağı olan Qarabağı da bizdən ayırdıqlarını düşündülər, yanıldılar... Qarabağ, nə olur, olsun, öz anasına qovuşmalı idi, başqa cür mümkün deyildi. Nəhayət, 27 sentyabr 2020-ci ildə II Qarabağ müharibəsinin başlanması ilə 44 gün ərzində Azərbaycan əsgəri Qarabağımızı bizə geri qaytardı. Bütün dünya Azərbaycan əsgərinin gücünü, qüvvətini gördü. Onlar Azərbaycan tarixinin ən şərəfli səhifələrini yazdılar, bu səhifələrin altında şəhid-leytenant **Vəli Quliyevin** də imzası var. O, 20 iyul 1997-ci ildə Culfa rayonunun Qazançı kəndində doğulmuş, əvvəl kənd məktəbində, sonra isə Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbində təhsil almışdır. Uşaq yaşlarından hərbiyə marağı olan Vəli Heydər Əliyev adına Hərbi Liseyin məzunudur. O, Cəbrayılın, Zəngilanın, Qubadlının, neçə-neçə kəndlərin işğaldan azad olunması uğrunda qəhrəmancasına vuruşub, "Aslanlar bölüyü" adlanan 14-cü bölüyün komandiri vəzifəsini yerinə yetirib. İgidliyi, mərdliyi, gözəl xarakteri ilə bütün əsgərlərin könlündə taxt quran komandir vəzifəsinin öhdəsindən uğurla gəlib. Həmin bölüyün əsgərlərindən biri qızğın döyüşlərdə yaralanır, Vəli Quliyev onu kilometrlərlə çiyinlərində daşıyır. Ağrılı, yorğun bir səs yavaş-yavaş pıçıldayır: "Burax məni, komandir, onsuz da ölürəm..." Komandir əsgərini buraxardımı heç? Axı o, ölümə yox, həyata inanırdı... Çiyinlərində yaralı əsgər, dodaqlarında dua, gözlərində dərin bir kədərin içindən parıldayan ümid işığı... Təngnəfəs olmuşdu, yorulmuşdu, dumanda, çiskində boğula-boğula qalmışdı, dizləri tez-tez bükülürdü, amma hər şeyə rəğmən, sona qədər getməyi bacardı. Budur, komandir yaralı əsgərinə öz əlləri ilə su verir, onu bağrına basır, sonra xəstəxanaya yola salır. Həmin əsgər indi sağdır. Komandir bir az da onda yaşayır... Şəhid olmağından 1-2 gün əvvəl Vəli boynundan yaralanır, onu xəstəxanaya aparmaq istəyirlər, lakin buna imkan vermir, yarasını sarıyıb döyüşlərə davam edir. "Bilirdim ki, mənim oğlum durmaz, mənim oğlum dayanmaz". Bəli, dayanmadı, son ana, son nəfəsə qədər qəhrəmanlıqla vuruşdu. Görünür, Vəlinin ürəyindəki vətən sevgisi canındakı ağrıdan da çox imiş. O sevgi var e, o sevgi... Dünyada ondan böyük heç nə yoxdur! Vəlinin qan axan yarasını da o sevgi sarıdı, o sevgi əllərindən tutub ayağa qaldırdı onu... Bu əzəmət səndə haradandır, Cənab Leytenant? Yan-yörəsində böyüdüyün Əlincədənmi aldın gücünü? Yoxsa hər şeyi damarındakı Qorqud qanına borcluyuq?! Danış, danış, bilək, bu torpağın havasını hər dəfə ciyərlərinə çəkəndə sevgisini də ürəyinə çəkən adam.

O, öz işini sevgi ilə, məsuliyyətlə görüb, heç vaxt uğurlarını, qəhrəmanlığını böyütməyib. O ancaq uğur qazana bilərdi, qəhrəmanlıq edə bilərdi, başqa cür mümkün deyildi, ona görə də etdikləri özünə qəribə gəlməyib. Anası Həqiqət xanım deyir ki, bir gün Vəliyə sual verdim: "Bəs sənin niyə heç diplomların, fəxri fərmanların yoxdur?" Dedi ki, ana, onlardan məndə bir aləm var, gələndə gətirərəm, baxarsan...

Vəli aldığı maaşı sadəcə əsgərlərin dərmanlarına, ehtiyaclarına sərf edirdi, axı onlar da orada bir ailə idi... Amalı, məqsədi bir olan, yumruq kimi birləşən bir ailə. Hamısının bir evi var idi – Vətən! Döşəyi torpaq, yorğanı göy üzü olan adamlar... Birlikdə islandılar, birlikdə üşüdülər,

birlikdə isindilər. Birinin canı ağrısa, bütün ürəklərdə hiss edilirdi, ya hamısı yaxşı olurdu, ya da heç biri...

Mənfur düşmənlər işğaldan azad olunan bir kəndimizi özlərinə qaytarmaq üçün dörd dəfə əks-hücum ediblər, üçündə Vəli əsgərləri ilə birlikdə düşməni geri çəkilməyə məcbur edib, özü də sağ qalıb. Amma dördüncü... Qubadlı istiqamətində gedən dördüncü döyüşdə Vəli sağ qala bilmədi... Qanından, canından keçdi, amma bir qarış da olsa, Vətən torpağından keçmədi, bir addım belə geriyə çəkilmədi. Onlar düşmənə o qədər qan uddurublar ki, düşmən hətta onların nəşini belə ələ keçirmək istəyib, bütün mənasız, uğursuz addımları kimi bu addımları da puç olub. Şəhidimizin anası Həqiqət xanımın dediyinə görə, korpus komandiri Mais Bərxudarov da bu işlə xüsusi məşğul olub və şəhidlərimizin nəşinin gətirilməsinə nail olunub.

Şəhid Vəli Quliyevin Naxçıvana gətirildiyi o gün... Anası bir vaxt bətnində daşıdığı oğlunu indi çiyinlərində daşıyır, dünyanın ən ağır yükünü daşıyarkən belə başı necə də dikdir, İlahi! Baxanda bilirsən ki, bu qəhrəman ana dünyaya ancaq qəhrəman oğul gətirə bilərdi! "O tək mənim oğlum deyil ki, həm də elin oğludur, Azərbaycanın oğludur!" El öz oğlunu bağrına basdı o gün. Hamı Vəlinin qardaşı, atası, anası, bacısı oldu... Necə ifadə edəsən o ağrını, o qüruru, o qarışıq, adsız hissləri? Anasının dik dayanmış başı, atasının qürurlu duruşu, bir də, bir də ağarmış saçı, dolmuş gözləri... Onlar qurula biləcək bütün cümlələrdən çox şey danışıb əslində. Anası oğlunu tez-tez yuxuda görürmüş: "Görürdüm ki, kənddəyik, Vəli gedir, amma qayıtmır, qayıtmır..." O, heç nəyi sonraya saxlamayıb, etmək istədiyi şeyləri gecikdirməyib, keçən hər saniyənin səsini iliklərinə qədər hiss edib. Bəlkə də, özü də tez gedəcəyini, o müqəddəs uzaqlıqların onu da gözlədiyini bilirmiş... İzlədiyim bir videoda döyüş yoldaşı öz arzularını danışır: “Biz Şuşanı alacağıq, Vəlinin də toyu olacaq, o, ailə quracaq, ata olacaq...” Vəli də elə ürəkdən “amin” deyir ki... Təəssüf, Vəlinin toyu olmayacaq, o toyda mahnılar səslənə bilməyəcək, amma ən böyük arzusu gerçəkləşib - Şuşada, Qarabağın hər qarışında Azərbaycanın himni səslənəcək. Vəlinin və Vətən uğrunda savaşan hər əsgərin nəfəsi himnimizin notlarına qarışacaq.

Vəlinin anası Həqiqət xanım danışır: "O, o qədər yaxşı insan idi ki, bir dəfə də görmədik, qardaşı ilə dalaşsın, "ah" desin, "uf" desin... Görmədik. İşinə sevgisi, məsuliyyəti, insanlarla münasibəti, etdiyi yaxşılıqlar... Hər şey o qədər yerli-yerində, o qədər gözəl idi ki, bunun bir sonu olacağını bilirdim..." Həqiqətən, eləmi olur, görəsən? Çox yaxşı insanlar dünyaya möcüzə kimi gəlib, qısa bir zamanda gedirlərmi? Bəlkə də, dünyanın bu qədər yaxşılığa dözümü yoxdur - bilmirəm... Sadəcə onu bilirəm ki, Vəli üçün savaşda həyat ölümə, Göy üzü Yer üzünə qalib gəldi. O təkcə mənfur düşmənləri deyil, həm də ölümü öldürdü. Ölümsüzlüyün üfüqlərində əbədiləşdi. Anası deyir: “O, əzginliyi, sızıltını sevmirdi. Bir dəfə zəng edəndə ağladım, ağlamamağımı tapşırıb beş dəqiqə sonra yenə zəng etdi. Dedi ki, Ana, ağlama, mən ermənidən qorxmuram, sənin göz yaşlarından qorxuram... İndi hər dəfə məzarına gedəndə ağlamamağa çalışıram, bilirəm ki, o, məni görür... O getməyib ki, o, hər yerdədir. Demişdi ki, Ana, sənin başını uca edəcəyəm, etdi də. Həmişə belə oğul böyütdüyüm üçün Allaha şükür edirəm. Mən ona haqqımı hələ sağlığında halal etmişdim. Mənim oğlum ölməyib ki, nə vaxt unudulsa, onda ölər”. Şəhidlər unudularmı, ölərmi heç? Hər dəfə o torpaqlara ayaq basanda əvvəlcə səbəbkarlara minnətdar olacağıq. Şəhidlərin ölümündən həyat doğulur. Onlar qanlarıyla nə qədər torpağa, gülə, çiçəyə can verdilər. Həsrətin nəfəsini əbədilik kəsib vüsala, ölümü öldürüb ölümsüzlüyə can verdilər. Vəli Quliyev kimi nə qədər qəhrəmanlarımız şəhid oldu. Cibindəki sevgi şeirləri qırmızıya boyanan kim, şəhid dostunun son nəfəsində başı üstündən iki ağ göyərçinin uçduğunu görən kim, mərmilərdə çiçəklər açdıran kim, son nəfəsini “qızım” deyə-deyə verən kim... Hər əsgərin taleyi bir hekayədir - yarasına duz tökülənlər, əsir düşənlər, işgəncə görənlər, şəhid qardaşlarını çiyinlərində daşıyanlar, ağrıların ən dözülməzini çəkənlər... Hərdən düşünürəm ki, biz müharibə haqqında çox az şey bilirik. Əsgərlərimizin yaşadıqlarını, qəhrəmanlıqlarını eşidəndə dilimdə sadəcə üççə kəlmə olur – “Haqqınızı halal edin”. Nə qədər ürəklər yandı, nə qədər canlar ağrıdı, kimisi gözünü itirdi, kimisi

ayağını, kimisi danışıq qabiliyyətini... Amma heç biri Vətən torpağından bir qarış belə itirmədi. Əvvəllər elə bilirdim ki, dünyadakı ən böyük sevgi qadınla kişinin bir-birinə olan sevgisidir. Hər şeyi gözə alıb həyat yoldaşını qürurla, sevgiylə cəbhəyə yola salan, yeri gəlsə, özləri də getməyə, ölməyə, öldürməyə və ən əsası, doğmalarını itirməyə hazır olan Azərbaycan qadınlarını görəndə anladım ki, bu dünyada Vətən sevgisindən böyük, ondan müqəddəs heç nə yoxdur!

Bəzi yaraların heç vaxt sağalmayacağını, ömür boyu sızıldayacağını bilirəm. Bəzi boşluqların yeri də heç vaxt dolmayacaq. Amma mənim xalqım ağrısından, acısından belə qürur duyur. Gözlərindən yaş axanda da başı dik dayanır. Biz anamızın, atamızın övladıyıq, amma onlarla birlikdə hər şeydən öncə Azərbaycanın övladıyıq. Bir az əşyalardan, bir az şəkillərdən, bir az da tanış adamlardan toplayacağıq şəhidlərin parçalarını... Kimisi bayrağa sarılacaq, kimisi də torpağa. Amma hamımızın bir ümidi, bir inamı var: ruhu şad olan, ay ömürlü, ulduz ömürlü adamlar göy üzündən həmişə bizə baxırlar, üçrəngli bayrağımızın bu torpağın hər qarışında dalğalandığını görüb gülümsəyirlər.

Əlvida, 28 ilin çəkilmək bilməyən dumanı! İndi buralarda göyərçinlərin fəslidir.




***Şəkil. Şəhid-leytenant Vəli Quliyev***

## II YER – Nəzakət RƏHİMOVA

II Qarabağ müharibəsi. Biz illərdir "bu an uğruna canımız fəda" demişik və bu gün o anları yaşayırıq. Bu dava Azərbaycanın haqq işi, haqq davası idi. Azərbaycan bu haqq işində, haqq davasında qələbə çaldı. Bəli biz qanımızla, canımızla zəfər çaldıq. Hər qarış torpaq uğrunda qan verdik, qan aldıq, amma biz düşməndən fərqli olaraq qanla bərabər torpaq aldıq, torpağımızı aldıq, Xarı bülbülü sahiblərinə qaytardır, Natavan, Vaqif, Xan əmi və daha yüzlərlə, minlərlə şəxsin Qarabağ səsinə səda olduq bugün. Bu anda məşhur bir sənətkar və Azərbaycan filmi yadıma düşdü. Filmdə deyilir: "hardasan, hardasan ay Məşədi Kazım, gəl gör sənin Cənnətinin nə cəlalı var?" Mən də bu gün bu qələbə xəbərində sonra deyirəm: "Hardasan, hardasan ay Laçının Məhəbbəti, gəl gör Laçınının nə cəlalı var." "Özüm gedəmməsəm, səsim dağlara ay dağlara " deyərdin, gəl də dağlarda səsinə, sədana bax bu gün.

Bax budur 44 günün şanlı zəfəri, budur 44 gündən doğan nəticə ...

Hər uğurun bir qəhrəmanı var deyirlər. Bu qələbəmizin isə qəhrəmanı yox qəhrəmanları var. Onlar bir deyil, iki deyil, yüzlərlədir, minlərlədir. Məşhur deyimdə olduğu kimi: "bir ölür, min diriliriz biz". Bəli, bu deyim həqiqətdir. Bu torpaq, bu vətən Mübarizlər yurdudur, Poladlar yurdudur. Bu torpaqda bir Mübariz ölər, min Mübariz dirilər.

Qəhrəman dedikdə çox vaxt ilk ağlımıza gələn, əsgər və zabitlərimiz olur, amma müharibə qəhrəmanları təkcə əsgər və zabitlərimiz deyil. Mən ilk qəhrəman analarımızı adlandırıram ki, belə oğullar dünyaya gətiriblər. Bizim analarımız ilk qəhrəmanlarımızdır. Azərbaycan qadını həmişə əxlaq və namus mücəssiməsi kimi tanınıb. Bu günümüzdə də dəyişilməz həqiqətdir. Bərdə, Gəncə, Mingəçevir, Beyləqan kimi tez-tez mənfur düşmənin raket hücumuna məruz qalan şəhərlərimizdə qadınlarımız hər gecə paltarla yatır, hətta yaşlı qadınlar belə yaxınlarına " bala üzərimi yaxşı geydir, ölsəm abrım getməsin." deyir. İndi sual verirəm cümlə cahana: Belə analarımızdan Mübarizlər, Poladlar doğulmaya bilərmi? 82 yaşında anamız əlləri əsə-əsə bayraq tikir ki, oğullarımız Şuşaya sancacaq, o tarixi günün həsrətilə yatıb, qalxırlar. Bax budur Azərbaycan anası, Azərbaycan qadını. Ona görə də, Azərbaycan qadınları bugünkü haqq davamızın ilk qəhrəmanlarıdır. Bir məşhur musiqidə analarımızın dilindən deyilir:

...Boş oturma çalış dedi,xidmət eylə vətənə,
Südüm sənə halal olmaz,sən baş əysən düşmənə...

Bu iki misra belə bizim qəhrəman analarımızı tanıtmağa yetər.

Birdə bizim atalarımız var. Mən bir neçə gün bundan qabaq sosial şəbəkələrdə bir yazı oxudum. Burda oğlu şəhid olmuş bir ata "on oğlum olsa, onunu da cəbhəyə göndərərdim" deyir. Xarici mətbuat isə yazır: "Dünyanın heç bir dövlətində valideynlərin övladlarını cəbhəyə, döyüşə Azərbaycanda olduğu kimi gülə-gülə göndərdiyini görməmişik. Oğullar özləri də oxuya-oxuya, gülə-gülə döyüşə gedirlər. Onlar yaralanda da tam sağalmamış cəbhəyə qayıdırlar". Mən bu yazını oxuyanda heç də təəccüblənmədim, çünki bu bizim millətimizə xas bir xüsusiyyətdir. Azərbaycan anaları düşmən analarından fərqli olaraq bilir hansı amal uğruna övladlarını cəbhəyə, döyüşə göndərir. Oğullarının şəhid xəbəri gələndə də bu analar səbrlə, mətanətlə dözür və dilində yalnız bir şüar olur: "Vətən sağ olsun!". Bütün bunlara nəzər salaraq mən ilk qəhrəman valideynlərimizi, xüsusilə də, analarımızı adlandırıram.

Bir də bu qəhrəman valideynlərin qəhrəman oğulları var. Bugün cəbhədə əlində silah vətənin hər qarışı uğruna can verməyə hazır igidlərimiz. Bir vaxt tarixdən "iki alan" igidlərimiz Qarabağda öz qanlarıyla öz tarixlərini, vətənin tarixini yazırlar. Bu igidlərimiz gözünü qırpmadan

“Vətən” deyib irəli atılırlar. Bir filmdə diqqətimi cəlb edən dialoq olmuşdu: filmdə terrorist əsgərə sual verir: “Sizin bizdən fərqiniz nədir?” Əsgər isə cavab verir: “Biz ölmərik, şəhid olarıq, siz isə leş olarsız. Biz döyüşə deyə-gülə gedərik, siz isə tir-tir əsərək. Bizim arxamızdan dualar oxunar, sizin arxanızdan isə lənətlər yağdırılar”. Bəli, bizim əsgərlərimiz mənfur düşməndən fərqli olaraq niyə və nə üçün canlarından keçməyə hazır olduqlarını, məqsəd və məramlarını dərk edərək döyüşürlər. Məhz buna görə də bugün bizim ordu müzəffər ordudur, qalib ordudur. Belə qəhrəmanlarımızdan bəzilərinə nəzər salaq: Bu qəhrəman oğullarımızdan biri Şükür Həmidovdur. Zənnimcə, onu tanımayan bir azərbaycanlı tapılmaz. O, hələ 2016-cı ildə aprel döyüşləri zamanı öz adından söz etdirməyi bacarmışdı. Lələtəpə yüksəkliyinin işğaldan azad edilməsi zamanı göstərdiyi şücaətə görə prezident İlham Əliyev tərəfindən Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdü. Əlbətdə ki, təkcə Lələtəpənin işğaldan azad olunması Şükür Həmidovu heç cür qane edə bilməzdi. O, daim bütöv Qarabağ amalıyla yaşayır, vətən müharibəsinin başlanacağı günü səbrsizliklə gözləyirdi və budur 27 sentyabr 2020-ci il Ş.Həmidovun və onun kimi yüzlərlə, minlərlə vətən eşqiylə yaşayanların günü gəldi: Vətən müharibəsi başlandı.

Böyük Nəsimi demişkən: ...Dövr onun, dövran onun....Gün Qarabağ günüdür, dövran Şükür Həmidovun dövranıdır. Şükür Həmidov döyüşlər başlandığı andan etibarən yalnız ön xəttə olmuş və aprel döyüşlərində olduğu kimi böyük şücaət göstərmişdir. O, vətənini, millətini, torpağını hər şeydən uca tutmuş, bir gün şəhidlik kimi uca bir mərama yüksələcəyini bilərək döyüşmüş və 23 oktyabr 2020-ci ildə doğulduğu Qubadlı rayonu uğrunda gedən döyüşlər zamanı böyük qəhrəmanlıq göstərərək şəhidlik kimi ali zirvəyə yüksəlmişdir.

II Qarabağ müharibəsi qəhrəmanlarından biri də şəhid Cəbrayıl Dövlətovdur. O, Azərbaycanın 19 yaşlı qəhrəmanıdır. Cəbrayıl öz istəyilə cəbhə bölgəsinə yönəlmişdi. Hələ uşaqlıqdan mərd, cəsur, qeyrətli bir oğul kimi tanınırdı. Anası oğlundan danışarkən gözləri dolur, “Cəbrayıl vətənini hər şeydən uca tuturdu” deyir. Cəbrayıl daim özünü deyil digərlərini düşünüb. Bu cəbhədə də özünü göstərir: o, yoldaşlarına “sizin ailəniz var, uşaqlarınız var, geri qayıdın gözüyaşlı qalmasınlar, mən subayam, qayıtmasam da birşey olmaz” deyir. 19 yaşında 19 əsr unudulmayacaq bir dastan yazır şəhidimiz. Şəhidimizin atası Dövlət bəy deyir “ Oğlum öz istəyilə cəbhəyə yollanıb. Nigaran qalmayaq deyə bizə də nəsə deməyib”. Zəngilanın Cəbrayılı bir anda Qarabağın, Azərbaycanın və milyonlarla ürəyin Cəbrayılı olur. Bugün bir Cəbrayıl hekayəsi keçdi dünyadan və zənnimcə, bu hekayə hələ illər uzunu oxunacaq.

II Qarabağ müharibəsinin şəhid qəhrəmanlarından danışarkən hazırda cəbhədə qəhrəmancasına əsgərlərilə çiyinbəçiyin döyüşən zabitlərini unutmaq günah olardı. Bu qəhrəman oğullarımızdan biri də Azərbaycanın milli qəhrəmanı Əliyar Əliyevin tələbəsi, general-mayor Mais Bərxudarovdur. Şükür Həmidov kimi o da aprel döyüşlərinin tanınmış simalarından biridir. Lələtəpə yüksəkliyinin işğaldan azad olunmasında xüsusi şücaət göstərmiş Mais Bərxudarova bu qəhrəmanlığına görə prezident İlham Əliyev tərəfindən General-mayor rütbəsi verilmişdir. O, doğulduğu Qubadlı rayonunun işğaldan azad olunmasında da xüsusi qəhrəmanlıq göstərmişdir.

Biz burada Mais Bərxudarov kimi yüzlərlə, minlərlə qəhrəman zabit və əsgərlərimizin adını çəkə bilərik. Amma mən biraz da digər sahə qəhrəmanlarından danışmaq istəyirəm. Məsələn: diplomatlarımız. Azərbaycan əsgəri cəbhədə tarix yazarkən prezidentimiz, nazirlərimiz, vəkillərimiz də diplomatiya meydanında savaşdı. Vaxtilə özünü “Azərbaycanın dostu” adlandıran bir sıra ölkələr safını dəyişərək Ermənistanın yanında yer aldı. Hətta bir vaxt Qarabağı Azərbaycan torpağı kimi tanıyan bir sıra dövlətlər bu həqiqəti dandı, utanmazcasına Qarabağı Ermənistanın tərkib hissəsi kimi tanımaq və tanıtmaq istədilər. Bəli, diplomatlarımız diplomatiya meydanında məhz belə haqsızlıqlara qarşı yorulmadan, usanmadan öz haqq səslərini qaldırıb, mübarizə apardılar.

Birdə bizim müəllimlərimiz var. Heç fikirləşmişikmi hardandır oğullarımızda bu qədər vətən sevgisi, kimdir bu sevginin memarı? Cavab verim: bu memarın gizli qəhrəmanı müəllimlərimizdir.

İllərdir bezmədən, usanmadan, şagirdlərinə vətənpərvərlik hisslərini aşılayan, onlara vətənin hər qarış torpağını tanıdan, sevdirən bu gözəl insanlarımız müəllimlərimizdir. Müəllimlər şagirdlərə təkcə yazmağı, oxumağı deyil, həm də vətənpərvərliyi, bir gün lazım olarsa vətən uğrunda candan keçməyi öyrədir. Eyni zamanda bu müharibəmizdə şəhid olan müəllimlərimizin də olması onu deməyə əsas verir ki, şagirdlər ilk örnəyi də məhz müəllimlərindən alırlar.Müəllimlərimizin vətənpərvərliyi bu yolda şagirdlərinə ilk nümunədir. Bütün bunları nəzərə alsaq deməliyik ki, bu qələbəmizdə müəllimlərimizin də xüsusi imzası var.

Bundan başqa, həkimlərimizdən danışa bilərik.Yaralı əsgərlərimizə əlindən gələn hər köməkliyi edən, özlərini hər cür təhlükəyə atan həkimlərimiz bir başqa gizli qəhrəmanlardır. II Qarabağ müharibəsinin ilk qadın şəhidi də məhz həkimdir. Arəstə Baxışova müharibə başlayarkən öz arzusuyla ön xəttə getmiş, olduğu yerdə yaralı əsgərlərimizə ilk tibbi yardımı məhz o göstərmişdir.Bundan başqa cəbhədən qayıdan yaralı əsgərlərin başı üzərində səhərəcən yatmadan gözləyən də məhz həkimlərdir. Onlar Hippokrat andına daim sadiq olduqlarını bu çətin müharibə şəraitində də bir daha sübuta yetirirlər.

Mən bu yazımın sonunda belə bir qənaətə gəldim ki, II Qarabağ müharibəsinin qəhrəmanları bir deyil, iki deyil, bu qəhrəmanlar milyonlarladır. II Qarabağ müharibəsinin qəhrəmanları 10 milyonluq Azərbaycan xalqıdır, bütöv bir millətdir. Görkəmli şairimiz Süleyman Rüstəm yazır:

Sonsuz gözəlliyindən çətindir, məncə, doymaq,
Məhəbbəti, şöhrəti dolanır oymaq-oymaq.
Bayrağının altında alnıaçıq, üzüağ,
Millət görmək istəyən Azərbaycana gəlsin.

Bəli, alnıaçıq, üzüağ millət görmək istəyən Azərbaycana gəlsin. Biz artıq uşaqlarımıza, yeni yetişən gəncliyə bütöv bir vətən əmanət edə bilərik. O vətəni ki, bugün qaçqını yoxdur, o vətəni ki, torpağında mənfur düşmən at oynatmır, o vətəni ki, təbii ehtiyyatları xalqımızın rifahına xidmət edir və nəhayət o vətəni ki, bugün dünya miqyasında adından söz etdirir.

Mən bu yerdə

Vətənimin seyrinə çağırıram elləri,
Sərvət görmək istəyən Azərbaycana gəlsin.
Bəzənib başdan-başa şəhərləri kəndləri,
Cənnət görmək istəyən Azərbaycana gəlsin.

– deyirəm və hər kəsi Vətənimin, Qarabağımın seyrinə çağırıram....



***Şəkil 1:** Milli Qəhrəman şəhid Şükür Həmidov*



***Şəkil 2: Şəhid Cəbrayıl Dövlətov***

**III YER – Aynurə ABBASZADƏ**

Bu gün günlərdən 10 noyabr. Bu gün günlərdən zəfər günü, həsrətin bitdiyi gün, qalibiyyət günüdür. Bu gün qartalın 28 il əvvəl köksündən qopardılmış ürəyinin köksünə qayıtdığı gündür. Bu gün 28 ildir boynu bükük yol gözləyən Xarıbülbülün başını dik tutduğu gündür. Bu gün 28 ildir öz suyunu donduraraq Vətən yolu gözləyən İsa bulağından suyun axdığı gündür. Bu gün İstisudan, sözün əsl mənasında, isti suyun axdığı gündür. Bu gün düşmən ayağı altında əzilməkdən azad olan Cıdır düzünün nəfəs aldığı, yaşıllaşdığı gündür. Bu gün Şuşanın dağlarının başına duman gəldiyi, "qırmızı kofta, yaşıl tuman geyindiyi" gündür. Bu gün Pənahəli xanın, Xurşudbanu Natəvanın ruhlarının öz yadigarına, göz bəbəyi Şuşaya qayıtdığı gündür. Bu gün Ağabəyim ağanın Vətən bağında Xarıbülbülün yetişdiyi gündür. Bu gün neçə ildir gözündən Vətən nisgili yağan Qarabağ atının bizə ürəkdən gülümsəyib öz belində yox, köksündə yer verdiyi gündür. Bu gün "o gün olsun Qarabağı düşmən tapdağından azad eləyək" dediyimiz gündür. Bu gün "inşAllah gələn il bayramlarımızı Qarabağda qeyd eləyək" dediyimiz ilin ilk günüdür. Bu gün həmin gün, bu gün həmin il, bu gün məhz o gündür - dualarımızdakı o gün. Bu gün Ə. Hacıyev, Ə. Əliyev, A.Aqarunov, Ç. Mustafayev, M. İbrahimov, F. Əhmədov, P.Həşimov, İ. Mirzəyev, Ş. Həmidov, Ç. Qurbanov, C. Dövlətzadə başda olmaqla bütün şəhidlərimizin ilk dəfə məzarda rahat uyuduğu - ruhlarının sözün əsl mənasında şad olduğu, məzarlarının, sözün əsl mənasında, nurla dolduğu gündür. Bu gün Xocalı soyqırımının qurbanlarının - Xocalıda şəhid olan uşaqlı-böyüklü bütün şəhidlərimizin bizə öz qanlarını, öz canlarını, öz haqlarını halal etdiyi gündür. Bu gün artıq torpaqlarımızın 20% -in işğal altında olmadığını deyəcəyimiz ilk gündür. Bu gün hələ raket sözü, bomba sözü nədir bilməyən, amma məhz adını belə bilmədiyi o raketin hədəfinə tuş edilən, düşməni, həm də mənfur düşməni belə tanımayan Zəhranın, Aysunun, Mədinənin və neçə belə körpənin intiqamının alındığı gündür. Bu gün gözündən qan-yaş axan Şəhid anasının, çiynində öz şəhid olmuş həyat yoldaşının tabutunu daşıyan Şəhid xanımının, qucağında öz Şəhid atasının şəklini daşıyan Şəhid övladının öz haqlarını Vətənə - bizə halal etdiyi, Şəhid atasının tam ürək rahatlığıyla "Vətən sağ olsun!" dediyi, başını dik tutduğu gündür. Bu gün başımızdan millət olaraq yaylığı - həm də qara yaylığı açıb kişilərimizin papaq, qadınlarımızın qırmızı yaylıq bağladığı gündür. Bu gün artıq qərənfilin üzünün güldüyü, toy-bayram rəmzinə çevrildiyi gündür, axı bu gün Şəhadət zirvəsinin Şəhidlərinin bayramıdır. Bu gün Ulu öndər, Ümummilli lider Heydər Əliyevin vəsiyyətinin yerinə yetdiyi gündür. Bu gün 28 il öncə məcburi köçkün adını qazanmış soydaşlarımıza Qarabağın qucaq açdığı gündür. Bu gün illər öncə BMT tərəfindən qəbul edilən 4 qətnamənin məhz BMT tərəfindən qələmlə deyil, ordumuz - igid oğullarımız tərəfindən öz qanlarıyla icra edildiyi gündür. Bu gün xalqımızın dəmir yumruğunu, polad iradəsini, milli birliyini-Zəfərini bütün dünyanın gördüyü gündür. Bu gün Şəhidlərimizin qanının yerdə qalmadığı, Şəhid qanından yoğrulan Qarabağ torpağına qarışıb bizə qayıtdığı gündür. Bu gün dağlardan, İsa bulağından, Cıdır düzündən, İstisudan, Xarı bülbüldən, Xudafərin körpüsündən - bu gün Qarabağdan danışmağa haqq qazandığımız gündür. Bu gün bizim günümüzdür. Bu gün Qarabağın günüdür. Bu gün illərdir sənədlər, danışıq masaları üzərində qalan haqq-ədalətin döyüş meydanında bərqərar olduğu gündür. Bu gün igid oğullarımızın öz qanlarıyla məhz bu günü tarixə qızıl hərflərlə yazdığı gündür. Bu gün Vətən müharibəsinin zəfərlə bitən son günü - bu gün papağımızın başımıza, qeyrətimizin, baş tacımızın öz elinə qayıtdığı gündür. Və bu gün, nəhayət, şanlı üçrəngli bayrağımızın Qarabağda Qarabağın mehiylə dalğalandığı gündür.

Bəli, bu gün o gündür. Həsrətlə gözlədiyimiz həmin o gün. 44 gün çəkdi Zəfər müharibəmiz. "Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" deyə çıxdıq bu yola. Bir yumruq olduq - dəmir bir yumruq. Bir birlik olduq, elə bir birlik ki heç kim onu parçalaya bilməzdi. Bəlkə də, inanmadıq ilk başda. Yuxu kimi gəldi bizə. Ama yox, sonra gördük ki, bu yuxu deyil, bu bizim "Zəfər müharibəmiz, Vətən müharibəmizdir". Hər bir Azərbaycan vətəndaşı əminliklə bunu deyə bilər ki, ömrümüzdə yaşaya biləcəyimiz ən gözəl, ən şərəfli 44 gün idi bu. Bəzən çətin oldu bizim üçün. Bəli, həqiqətən, çox qürurlu, bir o qədər də ağrı-acılı keçdi bu 44 gün bizim üçün. Yeri gəldi ağladıq, yeri gəldi güldük. Yeri gəldi hər çiyində Şəhid tabutu, hər oğul itirmiş ananın gözündə qan-yaş, hər öldürülən məsum körpənin cansız bədənini gördükcə ürəyimiz parçalandı, amma o hər çiyində gedən Şəhidin hansı qəhrəmanlıqla o zirvəyə - Şəhadət zirvəsinə yüksəldiyini, hər övladını, yaxınını itirmiş vətəndaşlarımızın yenə də "Vətən sağ olsun!" deyib bir vətəndaş kimi xalqına dəstək olduğunu, oğlunun qanının yerdə qalmamasını, torpaqlarımızın hər qarışının düşməndən azad edilməsini istəməsini duyub eşitdikdə, başlarına, evlərinə bomba yağsa da, öz evlərini tərk etməyən, ordumuza və Ali Baş Komandana sonunadək inandıqlarını deyən xalqımızı gördükdə ürəyimiz qürur hissindən dağa döndü. Millət olaraq dedik ki, belə oğullarla, belə bir millətlə - ən çətin vaxtında öz birliyini nümayiş etdirib bir yumruğa dönmüş xalqla bizə artıq ölüm yoxdur. Yalnız irəli getmək lazımdır. Sonunadək! Hətta mən deyərdim ki, geri qayıtmağa şansımız da, haqqımız da yox idi artıq. Bunu hər birimiz bilirdik. Çünki 28 ildir həsrətlə bizim yolumuzu gözləyirdi o torpaqlar. Borclu idik o torpaqlara qarşı. Aşağıdakı şeirdə də deyildiyi kimi:

Haqqımız yox danışmağa dağlardan,
Azad eyləməsək biz yağılardan.

Bəli, haqqımız yox idi nə o dağlardan, nə Cıdır düzü, İsa bulağı, İstisu, Xarıbülbüldən, nə də Vətən uğrunda canından keçmiş şəhidlərdən danışmağa. Biz bu haqqı qazanmalıydıq. Və qazandıq da. Amma necə qazandıq, nələrin hesabına qazandıq indi ondan danışmaq istərdim. Sözsüz, bu zəfərin əsas memarları - tarix yazan Qəhrəmanlarımız var. Bəli, bu qəhrəmanlar tarix yazdı. Həm də mürəkkəblə yox, kimlərsə öz qanlarıyla, kimlərsə isə öz göz yaşlarıyla. Bəs, görəsən, kimdir bu qəhrəmanlar? Çoxları yəqin ki, sadəcə bu qəhrəmanların Vətən uğrunda canından, qanından keçən, keçməyə hər an hazır olan, "biz bu yoldan dönər olsaq, namus bizə ar olsun" deyən mərd oğullarımız olduğunu düşünürlər. Amma mən bu qəhrəmanların tək onlar olduğunu düşünmürəm. Düzdür, heç şübhəsiz, onlar olmasa, biz bu tarixi yaza bilməzdik. Heç şübhəsiz, onlar bizim vuran əlimiz, döyüşən ruhumuz, bu qələbənin ən əsas memarlarıdırlar. Onların şücaəti, dönməzliyi, müzəffərliyidir bizə bu qələbəni yaşadan. Çiynində yaralı əsgəri daşıya-daşıya, qar-boran demədən sadəcə irəliyə addımlayan, irəliyə köklənən, öz qanını Vətən torpağı - Qarabağ uğrunda Vətən torpağında - Qarabağda axıdan bu igidlərdir, sözsüz, bizə bu qürur dolu anları yaşadan. Məhz onlar idilər bir əlində silah, bir əlində bayraq öz sinəsini düşmənə sipər edənlər, biz isti yuvamızda rahat yataq deyə gecə-gündüz bilməyib, yuxu nədir bilməyib döyüşənlər, yatmayanlar, gələcəkdə körpələrimiz analarını gözüyaşlı qoymasın deyə öz analarını gözüyaşlı qoyanlar. Məhz onlar idi Qarabağa can verib dirçəldənlər. Məhz onlar idilər öz nəfəslərini kəsərək Qarabağa nəfəs verənlər. Cənab Prezident İ. Əliyevin dediyi kimi: "Bizim ordumuzda minlərlə, on minlərlə Mübariz kimi, Fərid kimi Vətən uğrunda canından keçməyə hazır olan qəhrəmanlarımız var!". Bəli, məhz onlar idi həmin qəhrəmanlar, bunu bütün dünyaya sübut edənlər - Mübarizin, Fəridin ölmədiyini, bizim ordumuzda neçə Mübarizlərin, Fəridlərin olduğunu bütün dünyaya sübut edənlər. Məhz onlar idi texnikanın, silah-sursatın deyil, onu idarə edənlərin, onların Vətən eşqi ilə döyünən qəlblərinin gücünü bütün dünyaya göstərənlər. Axı "Vətən uğrunda ölən varsa, Vətəndir!" misrasını qulaqlarına sırğa, dillərinin əzbəri etmişdilər onlar. Axı onlar Vətən oğulları idilər. Axı Vətən onlara oğul demişdi. Onlar da məhz Vətən onlara oğul dediyi andan bütün dərd-sərini unudub mamır olub onun qayasında bitdilər, torpaq olub onun ağuşunda, qucağında yer etdilər özlərinə. Öz qanları ilə Qarabağ torpağını yoğurub, Qarabağa qarışıb bizə qaytardılar onu, bizə qayıtdılar onunla birgə.

Vətən də bu deyilmi əslində? Hal-hazırda üzərində dayandığımız torpaq - Vətən torpağı da neçə belə Şəhidin qanından, neçə belə Şəhid anasının göz yaşından yoğrulmayıbmı? B. Vahabzadənin də dediyi kimi :

Düşmən gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər.
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən torpağına çəkdi Şəhidlər! – bəli, məhz düşmən gülləsinə gözünü sabaha dikərək - sabahımız əmin-amanlıqla dolsun deyə qurban getdi onlar. Bəli, məhz öz qanlarıyla üçrəngli, şanlı bayrağımızı Vətən torpağına, Vətən göylərinə çəkdi, Vətən göylərində dalğalandırdı onlar. Tək bayrağımızı deyil, şərəfimizi, birliyimizi Vətən göylərində dalğalandırdılar. Onlar bu "Qələbə" adlı başı dağlardan uca abidənin ən əsas memarları idilər. Bəli, onlar ən əsas memar idilər, amma tək memar yox. Bu memarlar - qəhrəmanlar çoxdur hələ.

Bu qəhrəman oğlu əvəzinə, onun tabutunun büründüyü bayrağı qucaqlayan, ürəyini dərd-qəm parçalayan Şəhid anasıdır. Bu qəhrəman başını dik tutaraq "mən Vətənimə bir oğul yetişdirmişəm. Nə böyük şərəfdir, İlahi!" deyən Şəhid atasıdır. Bu qəhrəman qeyrətimizin təcəssümü olan, Şəhid yoldaşının tabutunu öz çiyinlərində daşıyan Şəhid xanımıdır. Bu qəhrəman Şəhadətin nə olduğunu hələ tam dərk etməsə də, öz Şəhid atasının tabutunun büründüyü bayrağı öpəndə gözündən qürur hissi yağan körpə Şəhid övladıdır. Bu qəhrəman ağlaya-ağlaya öz körpəsinin cansız bədəninə sarılan çarəsiz, amma mərd atadır. Bu qəhrəman 28 ildir Vətən torpağını, Vətən suyunu özü ilə birgə qaçqın gətirən, səbirlə öz torpağına, yurd-yuvasına qayıdacağı günü gözləyən məcburi köçkündür. Bu qəhrəman Gəncədir, Bərdədir, Tərtərdir, Ağdamdır. Bu qəhrəman Mədinədir, Nilaydır, Xədicədir, Nigardır, Arturdur, Aysudur, Zəhradır və daha neçə belə günahsız körpədir. Bu qəhrəman bizik. Bu qəhrəman - 10 milyon döyünən, neçə bu amal uğrunda döyünməyən ürəkdir. Bu qəhrəman Azərbaycan xalqı və ən nəhayət, bu xalqı - bu tarix yazan qəhrəmanları dəmir bir yumruq halında birləşdirən vahid bir amal - Vətən sevgisidir. Həqiqətən də, diqqət edəndə gördük ki, biz hamımız bu şanlı tarixi yazan zəfər qəhrəmanlarıyıq. Çünki bu bizim borcumuz idi. Bir vətəndaş kimi bu hamımızın - hər bir azərbaycanlının borcu idi. Çünki biz Şəhid qanı axan torpağı düşmən ayağına tapdaq edə bilməzdik. Biz öz borcumuzu yerinə yetirməliydik və yetirdik də. Şairin də dediyi kimi:

Vətən daşı olmayandan,
Olmaz ölkə vətəndaşı!

Biz hamımız - hər bir azərbaycanlı bu 44 gündə Vətən daşı olub düşmənin yolunu bağladıq, ona sipər olduq, polad olduq, əyilmədik. Bax elə indi biz əsl vətəndaş olduq. Elə məhz indi biz ürək rahatlığıyla, alın açıqlığıyla deyə bilərik ki, "Qarabağ, sən bizimsən! Sən Azərbaycansan! Biz sənə qayıtdıq. Biz Xarıbülbülə nəfəs verməyə qayıtdıq!". Elə məhz indi biz alın açıqlığıyla Ç. Mustafayevin ruhunu şad eləyərək deyə bilərik ki, "məzarında rahat uyu, Şəhidim! Biz artıq binamus deyilik. Biz nəhayət sənin səsinə səs verib qayıtdıq o torpaqlara". Elə məhz indi biz ürək rahatlığıyla, alın açıqlığıyla bütün Şəhidlərimizin ruhları qarşısında baş əyib deyə bilərik ki, "haqqınızı bizə halal edin, ey məkanı cənnətlər! Sizin intiqamınızı bax indi aldıq. Bax indi sizin qanınız yerdə qalmadı, ey Şəhadət zirvəsinin Şəhidləri! Ey Vətən oğulları! Ey Azadlıq şərbətini içənlər, siz ölməmisiniz ki! Şəhidlər ölmürlər axı! Tarixdə, təqvimdə elə bir gün yoxdur, ola da bilməz ki, həmin gün bir Şəhidin ölüm günü olsun. Siz əbədisiniz! Siz öz ölümünüzlə öz adınızı tarixdə, bizim qəlbimizdə əbədiləşdirmisiniz. Ölüm başqalarını məhz ayırarkən sizi bizimlə

birləşdirdi - həm də əbədi. Siz sadəcə əbədi yaşamaq üçün şəhid olaraq doğulursunuz. Ancaq ana bətnindən dünyaya gələrkən yox, torpağın bətnində dünyadan gedərkən!... ”

Bəli, biz bir vətəndaş kimi borcumuzun birini - ən əsasını yerinə yetirdik. İndi isə 28 ildir yol gözləyən, həsrətdən boynu bükülən, yarası qan ağlayan Qarabağa qayıdıb onun yaralarına məlhəm, dərdinə dərman olmalıyıq. Indi isə ayağımızın altındakı torpağı - Şəhid qanı ilə - o müqəddəs qanla yoğrulan bu müqəddəs torpağı - Vətən torpağını öpməliyik. Heç olmasa, Şəhadət zirvəsinin şəhidinin qoxusunu içimizə çəkib, onun qanının qarışdığı torpağın qulağına “Haqqını halal et, Şəhidim. Sənin qan olub qarışdığın torpağın üzərində gəzdiyim üçün! Sənin buxar olub sovrulduğun havanı, sənin nəfəsini ciyərlərimə nəfəs deyib çəkdiyim üçün! Öz qanını, canını Qarabağ edib bizə qaytardığın üçün!...”




***Şəkil: Gəncə hadisələri***: *Oktyabrın 10-dan 11-nə keçən gecə saat 02:00 radələrində Azərbaycan Respublikasının ikinci böyük şəhəri olan Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binalarını raket atəşinə tutması nəticəsində 10 dinc sakin qətlə yetirilib, 34 nəfər isə yaralanıb. Həmçinin 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektə ziyan dəyib.*

**Məleykə MİRZƏLİ**

Azərbaycanın dahi filosof yazarı Hüseyn Cavid illər öncə “Ölüm var ki, həyat qədərli dəyərli” deyə bir misra yazmışdı. Biz bu günlərdə bu sözü daha yaxşı anladıq...

2020-ci ilin iyul ayında mənfur düşmənin növbəti təxribatı ilə qarşılaşdıq. Həmin gün minlərlə gənc küçələrə axışıb “Əmr ver, Komandan” şüarları ilə yürüş keçirdilər. Bəlkə də, bu ilk qığılcım idi. 2020-ci ilin 27 sentyabrında tarixi bir qərar alındı! Bütün cəbhəboyu xətlərdə əks-hücuma keçildi. Səfərbərlik başladı. Analar öz oğullarını, bacılar öz qardaşlarını, yarlar öz ərlərini Vətən uğrunda yola saldılar. Gülən kim, ağlayan kim, sevinən kim? Ancaq gözlərdə bir hiss oxunurdu: “Qələbə!” Bəli, biz məhz bu günü illərlə gözləmişdik. Beləliklə, tarixə şanlı bir səhifə kimi düşən II Qarabağ Müharibəsi və ya Vətən Müharibəsi başladı.

Azərbaycanın hər qarış torpağından igidlər Vətən Müharibəsinə düşməndən qisas almağa, torpaqlarımızı işğaldan azad etməyə axışıb gəldilər. Heç mübaliğəyə yol vermədən, demək istəyirəm ki, müharibənin əsas canlı qüvvələrindən biri də məhz Oğuz eli, qədim diyar Naxçıvandan olan hərbiçi-zabitlər idi. Orada iştirak edən qəhrəmanlar xüsusi təlimlər almış, yüksək hərbi bacarıqlara malik, illərlə Vətənin bu günü üçün yetişdirilmiş zabitlər idi. Artıq heç kəsə sirr deyil ki, Vətən uğrunda ən çox şəhid verən məmləkətlərdən biri də Naxçıvan oldu. Buna görə də Cənab Prezident 10 noyabr tarixində Qələbə xəbərini xalqa verərkən Naxçıvandan cəbhəyə yollanan igidlərimizin qəhrəmanlıqlarından xüsusi söz açdı. Ali Baş Komandan qeyd etdi ki, Naxçıvanlılar müharibədə qəhrəmanlıqla vuruşub və şəhidlər verib.

Ötən günlərdə hər yana şəhidlər öz torpaqlarımızla gedərkən, yeganə Naxçıvan şəhidləri oldu ki, öz torpaqlarına təyyarə ilə gedirdilər. Nə edək ki, mənfur düşmən dırnağı ətdən ayıran kimi, bizim Naxçıvana gedən quru yolumuzu da ayırıb. Xalq artıq təyyarəni görmək istəmirdi. Həmişə ayrılıqlara son qoyan təyyarə, bu dəfə əbədi ayrılıqları gətirirdi. Lakin tarixin çətin sınaqlarından çıxmış Azərbaycan xalqı mərdi-mərdanə şəkildə bayrağı öpüb, köksünə sıxıb “Vətən sağ olsun!” dedi.

Biz qalib xalq olduq! Xalqımızın igid oğulları tarixin qara günlərini sildilər. Onlar qanları hesabına yeni tarix yazdılar! Bu qələbə tarixində Adil, Elton, Sərxan, Rauf adlı sərkərdələrimizin də imzası var. Onlar dördü də Şərur rayonunun Ələkli kəndindəndir. Dünyaya göz açandan bəri qəlblərində bir sevgi böyüdüblər - Vətən! O Vətən ki, bu gün onları bağrına basıb! Onların əməlləri də, amalları da bir olub – Vətəni yağıdan qorumaq! Qorudular da! Canları hesabına, qanları hesabına!

Ələkli kəndi bu gün məğrurdur, qürurludur! Çünki onun polad biləkli, mübariz ürəkli oğulları şanlı tarixin bir parçası oldu. Bu kəndin adına boş yerə “Əli əhli” demirlər ki... Şəhid XTQ-in Baş Leytenantı **Adil İbrahimli**, Şəhid XTQ-in Leytenantı **Elton Qənbərli**, Şəhid Leytenant **Rauf Qurbanov**, Şəhid müddətdən artıq hərbi xidmətçi **Sərxan Salahov** qəhrəmancasına vuruşub xalqın birliyinə dirilik verənlərdən oldu. Onlar qəlblərində iman, sinələrində bayraq daşıyaraq bu yolda canlarını fəda etdilər!

Adil İbrahimli və Elton Qənbərli bir ağacın iki budağı kimi idi. 24 oktyabrda Şərur rayonu Şəhidlər Xiyabanında oğlunu - Elton Qənbərlini torpağa tapşıran Sona Qənbərova belə demişdi: “Erməni vandalları görsün ki, biz necə övladlar yetişdirmişik. Vətən uğrunda canlarından keçirlər. Bu gün oğlumla fəxr edirəm. O, cənnətin açarlarını bizə – valideynlərinə verib getdi. Vətən sağ olsun!” Sona ana bilmirdi ki, bir neçə həftədən sonra qızı Nargül xanım da öz həyat yoldaşını bu yolda itirəcək. Bəli, məhz həmin ananın qızı Nargül xanım həyat yoldaşı – Baş Leytenant Adil İbrahimlinin cənazəsini 20 noyabrda öz çiyinlərində daşıdı. Bir ailə iyirmi gün içində iki şəhid verdi, Nargül xanım həm qardaşını, həm də iki körpə balasının atasını, ömür-gün yoldaşını itirdi.

Buna baxmayaraq, qürurlu şəkildə duruşu əsl Azərbaycan qadınının simvolu oldu! Sanki bayraqdar oldu...

Adil Asəm oğlu İbrahimli 9 sentyabr 1992-ci ildə anadan olub. 1999-2008-ci illərdə Sumqayıt şəhəri 14 nömrəli tam orta məktəbdə 9-cu sinfi bitirib. 2008-ci ildə isə təhsilini davam etdirmək üçün Cəmşid Naxçıvanski adına Hərbi Liseyə qəbul olub. 2011-ci ildə həmin liseyi bitirdikdən sonra Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. O, 2015-ci ildə Hərbi məktəbini bitirərək Leytenant rütbəsini alır. Sonra Təlim Tədris Mərkəzində zabit kimi təkmilləşdirmə kursu keçərək Azərbaycan ordusunda xidmətə başlayıb. 2017-ci ildə XTQ-ə qəbul olan Adil orada fəaliyyət göstərdiyi zamanda Türkiyədə "Komando" kursunu fərqlənmə ilə bitirir. Adil ailəsinin ortancıl övladı olub. Uşaqlıqdan bəri vətənpərvərliyi və dinə imanı ilə yaşıdlarından seçilib. Adil İbrahimlinin atası Asəm bəy də I Qarabağ Müharibəsinin qazisidir. 1992-ci ildə müharibəyə könüllü gedib. Bu günə qədər də Veteran vəsiqəsini götürməyib. Deyir ki, "Məğlub savaşın qalib əsgəri ola bilməzdim". O, özü kimi də oğul böyüdüb. Çox sevdiyi atasının adını daşıyan, "dədə" deyə müraciət etdiyi Adili belə yad edir: "Mənə dedi ki, mənə halallıq ver. Mən gedirəm. Əmim kimi hərbiçi olacam. Hələ zarafatla deyirdi ki, mən əmimgildən də yuxarı məqamda olacam. Bəlkə də, onun qulağına Allah-Taala tərəfindən deyilmişdi ki, sən elə bir böyük zirvədə olacaqsan ki..." (Burada ata qəhrindən göz yaşına qərq olur, sözünü tamamlaya bilmir ). Lakin atanın nə demək istədiyini anlayırıq, onun dədəsi, həqiqətən, ən yüksək məqama çatıb. Elə bir məqam ki, biz istəsək də, onu təsvir belə edə bilmərik. Adilin həyat yoldaşı Nargül xanım onu 12 yaşından bəri tanıyır. Evlilikləri cəmi üç il olsa da, onların sevgisi uzun bir yol qət edib. O deyir ki, "Mən onu tanıyan vaxtdan bəri həmişə deyirdi ki, gündəliklərin arxasında olan qan yaddaşını dəyişmək istəyirəm. Belə idi onun Vətən sevgisi, dil ilə təsvir etmək mümkün deyil. Bu bəlkə də, onun dinə böyük inancından irəli gəlirdi. Adil işində peşəkar olduğu kimi, ailədə də gözəl başçı idi. Mən Adil kimi ailə başçısı, ata indiyədək görməmişəm. Bir söz var: böyüklə böyük kimi, kiçiklə kiçik kimi davranırdı. Qızına bir ayrı, oğluna bir ayrı, mənə bir ayrı yanaşırdı. Həyat elə gətirdi ki, qızı ilə cəmi 12 gün vaxt keçirə bildi... O evə gələndə ayaqqabısını belə çıxarmamış Əbəlfəzi öpürdü. Övladlarına qarşı sevgisi belə idi. Adillə üç ildir ki, evliyik. Toyumuzdan bir həftə sonra təlimə getdilər. Heç bir ad günlərini, heç bir evlilik ildönümlərimizi birlikdə keçirə bilmədik. Daim kurslarda, təlimlərdə oldu. Həsrət çəkdik. İndi də məni ömürlük həsrətdə buraxıb getdi". Adil, həqiqətən, cavan olmasına baxmayaraq, xeyli peşəkar hərbiçi olub. Son vəzifəsi isə Qrup komandiri və Baş kəşfiyyatçı idi. Döyüş yoldaşları onun cəsarətindən, müharibənin ən qızğın döyüşlərindəki şücaətindən, necə son damla qanınadək vuruşmasından danışır. O, Murovdağ uğrunda gedən döyüşlərdə, Suqovuşan, Füzuli, Hadrut, Xocavənd, Şuşa döyüşlərində iştirak edib. 40 gün vuruşub. Son tapşırığı Şuşada olub və elə orada da böyük şücaət göstərib, yaralı olsa da qəhrəmancasına vuruşub, lakin mənfur düşmən yenidən ona atəş açıb... Noyabrın 7-də Adil ölümün qarşısında sinə gərib, ən son məqamda isə Şəhidlik şərbətini dadıb. Noyabrın 20-də Bakıda II Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Adil İbrahimli ölümündən sonra Cənab Prezident İlham Əliyevin 9 dekabr tarixli sərəncamına əsasən, "Vətən Müharibəsi Qəhrəmanı" adını layiq görüldü. Bu ailənin hərb sevgisi 39 illik hərbiçi əmisi olan HHQ-nin şöbə rəisi, Polkovnik Elman İbrahimovdan gəlir. Adil də, Elton da ona oxşamaq istədikləri üçün hərbiçi olublar. Əmisi Elman İbrahimov deyir ki, Adil, Elton, İbrahim və onların bütün yoldaşları, bütün şəhidlərlə fəxr edirəm. Onların qanı yerdə qalmayıb. Biz bütün dünyada başıaşağı idik, lakin indi onların sayəsində alnıaçıqığ". O, ailəsinə deyir ki, "Başınızı dik tutun, sizin göz yaşlarınız sevinc göz yaşları olmalıdır". İndi Adildən geriyə iki körpə balası və xatirələri qalıb. Məhz o xatirələrlə yaşayıb, yaşadacaqlar...

Elton Baba oğlu Qənbərli 1 fevral 1997-ci ildə anadan olub. O, 2003-2011-ci illərdə Ələkli kənd tam orta məktəbdə 9-cu sinfi bitirib. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2014-2018-cü illlərdə isə Azərbaycan Ali Hərbi Akademiyasında hərbi təhsil alıb. Elton uşaqlıqdan bəri hərbiçi olacağını deyirmiş və elə hərbi məktəbə qəbul olması da ailəsi üçün böyük sürpriz olub. Onlar ailədə üç uşaq olublar. Hazırda kiçik qardaşı da hərbi məktəbdə oxuyur. Ailənin ən sakit övladı da, ən çox gülən övladı da Elton imiş. Sanki Mələk timsalı... Elton indiyədək bir çox təlimlərdə olub. Həmişə təlimlərini birinciliklər və ya yüksək nəticə ilə başa vurub. Onun iştirak etdiyi belə kurslardan biri də "SAT" hərbi kursu olub. Ora qatılan 176 nəfərdən

yaşca ən kiçiyi olsa da, sonda təlimi başa vuran 8 nəfərdən biri də Elton olub. Daha sonra isə XTQ kursunu birinciliklə bitirib. Və ilk hərbi tapşırıqlarını yetirmək üçün N saylı hərbi hissəyə yollanıb. Bacısı Nargül xanım deyir ki, “Bir dəfə votsapda onun uğurları haqqında paylaşım etmişdim. Məndən xahiş etdi ki, bacı, onları sil. Mən bunları göstəriş üçün etməmişəm”. Heç vaxt uğurlarını paylaşmağı xoşlamayıb. Düşünürdü ki, etdiyim və qazandığım uğurlar özüm üçündür. Elton hərtərəfli istedadlı imiş. O həm də incəsənətə - rəqsə, musiqiyə də maraq göstərirdi. Məktəbli vaxtı musiqi məktəbini bitirib, gözəl nağara çalmağı bacarırmış, 12 növ Şərur yallısını bilirmiş. Bütün bu işləri ilə yanaşı Elton mütaliəyə də vaxt ayırırdı. Ən çox sevdiyi yazar isə Dostoyevski olub. Dostoyevski kimi bir yazarı anlamaq üçün mütaliədə böyük yol getməlisən. Görünür, Elton həm də mütaliəyə xeyli vaxt ayırırmış ki, özünü daha geniş şəkildə inkişaf etdirsin... Eltonun icra etdiyi son vəzifəsi Qrup komandiri müavini və kəşfiyyatçı olub. Dostları, çiyindaşları onun müharibədə necə döyüşməsindən danışır. “Sədaqətim şərəfimdir” deyən XTQ xidmətçiləri andlarını əməllərində də göstərdilər. Elton Suqovuşan, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı döyüşlərində iştirak edib. 23 gün böyük qəhrəmanlıqlar göstərərək döyüşüb. Döyüşlər zamanı yaralansa da, o hospitala getməyib, deyib ki, mən hər şeyi burada görüb, yaşamaq istəyirəm. O, şiddətli döyüşlər zamanı yaralansa da, meydandan çıxmayıb və elə Qubadlının işğaldan azad olunması uğrunda gedən döyüşlərdə şəhid olub. Oktyabrın 24-ü Şərur rayonu Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Övladı Elton haqqında danışan Sona xanım deyirdi ki, “Mən iki tərəfli şəhid anasıyam. Əslində deyilməli, danışmalı sözlər çoxdur. Bəlkə, deyəm yazasınız, “Minbir Gecə” kitabını belə ötüb keçər... Vətən sağ olsun! Başqa da heç nə demirəm”. Bu ananın dediyi bir neçə cümlə elə özü böyük bir dastanı əhatə edir. Hansı ki, o dastanın boylarının və qollarının sayı hesabı yoxdur... Bacısı Nargül xanım isə deyir ki, “Həyatımda ən ağır an o idi ki, Eltonun qəbrinə ilk torpağı özüm atdım. Sonra isə gedib Adilimi çiynimdə gətirdim. Fikirləşdim ki, bü dünyada cismimiz bir-birinə sadəcə o an yaxın olacaq. Onun başı mənim çiynimdə... İndi mən müqayisə eləməyə çalışıram ki, qardaşımın üzərinə ilk torpaq atdığım an ağır idi, yoxsa Adili çiynimdə aparmağım...” Təbii ki, bu hisslər, bu acılar heç bir müqayisəyə gəlməz. Nə yoldaşı Adili, nə də qardaşı Eltonu bir-birindən ayıra bilməyəcəyini özü də anlayır...

Sərxan Həsənqulu oğlu Salahov 1 mart 1991-ci ildə anadan olub. Ələkli kənd tam orta məktəbdə orta təhsilini alıb. Onlar ailədə iki bacı, bir qardaş olublar. Sərxan elə uşaqlıqdan bəri mərd, vətənpərvər olub. O, daim ailəsinin və eyni zamanda Vətənin yükünü çiyinlərində hiss edib. Buna görə də Vətənə hərbi xidməti özünə borc bilib. Anası Müşkinaz Salahova onu belə yad edir: “Sərxan müddətdən artıq hərbi xidmətə qulluq edirdi. Kursunun bitməyinə 3-4 gün qalmışdı. Döyüşlərə könüllü yazıldı. Getdi, qəhrəmancasına döyüşdü və qəhrəmancasına şəhid oldu...” Sərxan döyüşlərdə olduğu müddətdə ailəsindən bunu gizlədib. Anası deyir ki, “Danışırdıq Sərxanla. Deyirdi ki, ana, mən qabaqda deyiləm ki, mən döyüşmürəm, mən arxa cəbhədə fəaliyyət göstərirəm. Sən demə, məni aldadırmış ki, pis olmayım. Döyüşlərin ən qızğın getdiyi bölgələrdə imiş”. Ana deyir ki, danışıqlarımız zamanı telefonda atışma səslərini eşitdiyim zamanda belə mənə “Bizim uşaqlardır”- deyirdi... Döyüş yoldaşları Sərxanın bitib-tükənməyən əzmindən danışırlar, deyirlər ki, “Sərxan yaralananda hospitala aparıldı. Xəstəxanada o qədər ağır yaralılar görüb, deyib ki, mən üç qəlpə yarası almışam, mənə bir şey olmaz, buraxın məni gedim”. Beləcə yenidən cəbhəyə yollanıb. Dostları ona təkidlə müalicə almaq üçün getməyini deyib. Amma o “Mən heç kimdən artıq deyiləm. Siz necə, mən də elə” deyib. Bu iradə, bu ruh yüksəkliyi ilə davam edən qızğın döyüşlərin birində, səngərdə olduğu vaxt dostu Raufun şəhid olması xəbərini alır. Bu xəbər ona ağır zərbə vurur. Yanında olan yoldaşları danışır ki, Sərxan “şəhid” sözünü eşidər-eşitməz, həmin an səngərdən çıxdı, yürüdü ermənilərin üstünə. Nə qədər dartdıq ki, Sərxan, geri dön, getmə, göydən bomba yağır. Sərxan dinləmədi. Getdi qabağa. İki saatdan sonra xəbər gəlib ki, Sərxan vuruldu, Sərxan şəhid oldu... Dostları deyir ki, hələ bundan qabaq da beş gün mühasirədə qalmışdıq.

Lakin ordan çıxmağı bacarmışdıq... Videolarının birində Sərxan deyirdi ki, alnımıza nə yazılıbsa, o da olacaq... Amma o alnına nə yazıldığını düşünmədi, birbaşa yağının üzərinə yürüdü. İndi Müşkinaz ana deyir ki, "Qismətində Şəhidlik məqamına çatmaq var imiş. Mən balalarımı çox çətinliklə böyütmüşəm. Sərxan da iki bacının bir qardaşı idi. Deyirdi ki, Ana, mən hərbiçi olacam. Bundan sonra hər şey yaxşı olacaq. Sənin başını hər yerdə ucaldacam. Demək, Sərxan mənim başımı bu cür ucaldacaqmış... Amma kaş torpaqlarımızın azad olunduğunu, qələbəni o da görəydi. Yenə də sağ olsun ordumuz, əsgərlərimiz, Prezidentimiz ki, onların qanı yerdə qalmadı, onların qanını aldılar. Düzdür, ana üçün çətindir, ancaq çox şükür, min şükür buna da. Ən azından onun cənazəsi gələ bildi mənim üstümə. Vətən sağ olsun!" İki dost indi yanaşı, əbədi yuxuya dalıblar. Sərxanla Rauf hər ikisi noyabrın 6-da Şərur rayonu Şəhidlər Xiyabanında yan-yana dəfn ediliblər. Sərxandan geriyə iki körpə qızı qalıb. Onları isə Vətənə əmanət edib getdi...

Rauf Vahid oğlu Qurbanov 15 sentyabr 1995-ci ildə anadan olub. 2001-2011-ci illərdə Ələkli kənd tam orta məktəbi və Vərməzyar kənd tam orta məktəbində ilk orta təhsili alıb. 2011-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. Oranı yüksək nəticələrlə biritib, Fəxri Fərman alır. 2014-2018-ci illlərdə isə Azərbaycan Ali Hərbi Akademiyasında təhsil alıb. 2018-ci ildə Leytenant hərbi rütbəsini alaraq ilk təyinatı olan N saylı hərbi hissəyə göndərilir. O, geniş dünyagörüşünə malik idi. Rus və ingilis dillərində səlis danışa bilirdi. Xidmət etdiyi müddətdə də daim öz cəsarəti və qəhrəmanlığı ilə seçilib. Yüksək rütbəli erməni zabitini məhv etməsi də onun belə qəhrəmanlıqlarından biri idi. Bu hadisə hələ II Qarabağ Müharibəsi başlamamışdan öncə baş verib. Ailəsi deyir ki, buna görə onu təltif edəcəkdilər, lakin müharibənin başlaması və döyüşlərə yollanması ilə hər şey unuduldu. Sentyabr 27-də bütün hərbiçilər kimi Rauf da cəbhə istiqamətinə yol alır. Raufun icra etdiyi son vəzifəsi Taqım komandiri vəzifəsi olur. Döyüşlərin qaynar vaxtlarında daim ön cəbhədə vuruşur və ayağından yaralanır. İki gün arxa cəbhədə olur. Amma onu orada tuta bilmirlər, öndə vuruşmaq istədiyini bildirir... O, ailəsi ilə son dəfə oktyabrın 5-də danışıb. Ailəsinə deyib ki, "bəlkə, döndük, bəlkə, dönmədik, hər şey ola bilər, mənə halallıq verin". Qəhrəman Raufumuz Füzuli şəhərinin işğaldan azad edilməsi uğrunda gedən qızğın döyüşlər zamanı böyük şücaət göstərərək özünü əsgərinə atılan güllənin qabağına verir və ağır şəkildə yaralanır. Lakin qan içində olmasına baxmayaraq mübarizəni buraxmayan Rauf öz dəstəsi ilə birlikdə irəliləməyi bacarır. Füzuli şəhəri 17 oktyabrda işğaldan azad edilir, 18 oktyabrda isə Rauf Şəhidlik şərbətini dadaraq adını qəhrəmanlar sırasına yazdırır... Onlar ailədə iki qardaş olublar, böyük qardaş isə Rauf idi. Şəhid qardaşı haqqında danışan Rəşad Qurbanov onu belə xatırlayır: "Onun bütün hisslərinin ən alisi vətənpərvərlik hissi idi. Mehriban və gülərüz idi mənim qardaşım. Evə məzuniyyəti son dəfə 2020-ci ilin yanvar ayındı olmuşdu. Son dəfə onda görmüşdük Raufu..." Rauf onu tanıyan hər kəsin qəlbində mehriban və gülərüz, zarafatcıl olaraq əbədi taxt qurub. Və o özünə layiq məqama da ucaldı. İndi onun və onunla birlikdə şəhid olan döyüş yoldaşlarının uğrunda can verdiyi bütün torpaqlar artıq Ana Vətənə qovuşub. Onların qanı alınıb. Noyabrın 20-də evliliyinin ilk ili tamam olacaqdı, amma bu günü görmək ona qismət olmadı. Rauf noyabrın 6-da Şərur rayonu Şəhidlər Xiyabanında dəfn edildi.

Adilin, Eltonun, Sərxanın, Raufun haqqında ictimaiyyətə təqdim olunacaq qədər məlumat verməyə çalışdım. "Bunlar aysberqin görünən tərəfidir" desək, heç yanılmarıq. Onlara bu dərəcədə böyük cəsarəti, qorxmazlığı verən Vətən eşqi olub! Mən dörd şəhidimiz haqqında yazarkən öyrəndim ki, Ələkli kəndindən olan Mayor İlkin Rzayevin də şəhidlik xəbəri gəlib, cənazəsi tapılıb. O, itkin idi, Murovdağ uğrunda gedən döyüşlər zamanı şəhid olan Murov aslanı orada qar uçqunu altında qalıb... İgidlərimizin qəhrəmanlıq salnamələrini dinləməklə, yazmaqla bitirmək olmaz. Mən sadəcə dörd igidimiz haqqında yazdım. Bundan sonra illər, yüz illər, min illər ötsə də, tariximizdə bu şanlı səhifələr unudulmayacaq. Gələcək nəsillər daim onlarla fəxr edəcəklər.

**Şəkil 1. Şəhid, XTQ-in Leytenantı Elton Qənbərli** **Şəkil 2. Şəhid, XTQ-in Baş Leytenantı Adil İbrahimli**





***Şəkil 3. Şəhid, Leytenant Rauf Qurbanov***





***Şəkil 4. Şəhid, Müddətdən Artıq Hərbi Xidmətçi Sərxan Salahov***

***Türkan HÜSEYNOVA***

İkinci Qarabağ müharibəsi, tarix yazan Qəhrəmanlar

Mən 18 yaşlı bir qızam. Qarabağa çox uzaqlardan baxıram. Çox uzaqlardan-sərhədlərin o tayından. Hər zülm zillətə sinə gərmiş, tapdanmış, əzilmiş torpağın məğrur dayanıb başını endirməyən, düşmənə baş əyməyən dağlarını görürəm. Sakit pıçıltıyla daşlara çırpılaraq, Vətən laylasını zümzümə edən çayları görürəm. Yenə də kölgəsi bu torpağı qorumağa çalışan, otuz ildir bar verməyən ağacları görürəm. İçimdə bir səs mənə deyir:" Hanı o gözəlliyi dillərə dastan, yaşıl bağları, başı qarlı dağları yeri göyü lərzə salan Qarabağ? Düşmən dağıdıb, yerlə yeksan edib buranı. Duman bürüyüb torpağımın üzərini. Hanı o duruşun , hanı o cah-cəlalın Qarabağım? Hanı orda sənə əmanət edib döndüyümüz evlərimiz?". Uzaqlardan baxıram bu torpaqlara. Hüzn, həsrət acısı çökmüş gözlərimə sataşır gözlərim aynada. Sanki ruhum çıxır bədənimdən aşır sərhədləri, qırır tikanlı məftilləri, gedir gəzir hər torpağını qarış-qarış. Torpağıma sarılır, hər dağa hər yamaca sarılır. Ayaqyalın qaçıram aşırımlı, qayalı, sıldırımlı yollarda. Qaçıb gedirəm Qarabağıma. Cismimsə donub qalıb sərhədlərin bu tayında. Uzaqlardan baxıram torpağıma. Elə bu zaman yanağımdan süzülən yaş damcısı torpağa düşür, və yoxa çıxır. Bu vaxt ağlımda bir sual canlanır, ey ulu torpaq, illərdir bu qədər göz yaşını, ah-naləni necə sığdıra bilirsən köksünə? Gurulda, çağla artıq. Qoy o göz yaşları coşsun, çağlasın sel olsun, yuyub aparsın düşmən tapdağını bu müqəddəs torpaq üzərindən. Daha möhkəm əsin, ey küləklər, aparın bu qan qoxusunu torpağımdan. Nə qədər dözəcək bu məğrur xalq bu həsrətə? Nə qədər? Bitsin artıq bu ağrı, acı.

Üzümü çevirəndə bir əsgər gördüm, yaxınlaşıb " uzaqlaş burdan, təhlükəlidir" dedi. Əsgərlər çox idi və hamısı əllərində silah, qəlblərində bayraq irəli gedirdilər. Gözlərində yenilməzlik, məğrurluq atəşi vardı. Onları məğlub etmək mümkünsüz kimi görünürdü. Hərdən fikirləşirdim, onlar insandır ya insan cildində mələk? Xalqı, Vətəni qorumaq üçün canlarını fəda etmiş, ölümü gözləri önünə almışdılar. Onlar bir xalqın xilaskarı idilər. İnsanların qəlbində illərdir kök salıb ucalan, və illər keçdikcə kökü daha da dərinlərə doğru baş alıb gedən həsrət dağını yerlə yeksan edən xilaskarlar. Getdikcə irəliləyir, və daha görünməz olurdular, qabağa-düşmən üzərinə gedirdilər. ALLAHıma yalvarırdım əgər bu yuxusa, onda qoy heç ayılmayım. Ömrümün sonuna kimi Azərbaycan əsgərlərinin fədakarlıq, zəfər və qələbələrini, Azərbaycan əsgərlərinin yenilməzliyini, ucalığını görmək istəyirdim. Daha çox baxmaq istəyirəm bu Vətən oğullarının göstərdiyi şücaətə, " Qarabağ mənimdir" deyə qışqırıb, zəfər dolu hayqırtılarla hər qarış Vətən torpağını düşmən tapdağından azad etmələrinə baxmaq istəyirəm. İnsanlar el-obalarına qayıtsın deyə, quruyan ağaclar bar versin deyə, quruyan çaylar yenidən qayalara çırpınsın deyə, qara buludlar Qarabağ üzərindən çəkilsin deyə onlar var gücləri ilə vuruşurlar. Kimisi evdə ana-atasını, ailəsini, bacı qardaşını, kimisi övladlarını qoyub, Vətənin azadlıq mübarizəsinin əsas aparıcı qəhrəmanına çevrilib. Onları yağan qar, əsən külək, yağan yağış, heç nə narahat etmir, onları heç nə qorxutmur, nə vaxtsa üşüsələr, əllərini qəlblərinin üstünə qoyarlar, qəlblərindəki Vətən sevgisinin hərarəti onları isidər. Onlar Vətən oğludur, Onlar Torpaq oğludur. Onların hər biri bir Qəhrəmandır. Qarabağın hər qarışında üçrəngli bayrağı Vətən göylərinə qaldıran Qəhrəmanlar. Nə gözəldir, bir millətin, bir xalqın belə Qəhrəmanlarının olması. Dünyaya Vətən sevgisinin, Yurd sevgisinin nə olduğunu anlatması. Qarabağın zəfər salnaməsini Azərbaycan tarixinə yazması. Var ol ey Xalq, var ol ey Vətən, var olun ey Analar. Var olunki belə övladlar, belə oğullar yetirmisiniz bu Vətənə. Soyuq səngərlərdən Vətənin isti ağuşuna atırlar özlərini. Şanlı bayrağı başları üzərinə qaldıraraq, zəfər, qələbə sevincini yaşadırlar bu xalqa.

Qəlblərində Vətənə, torpağa sonsuz sevgi, düşmənə nifrət hissi böyüdürlər. Onlar Azərbaycan xalqının baş ucalığı, Azərbaycan xalqının dünyaya örnək etdiyi əsgərləridir. Onlar hər biri ayrılıqda bir Vətəndirlər, onlar sevgidir, onlar Azadlıqdırlar. Azadlıq toxumunu Vətən torpağına səpib, gecə-gündüz qayğısını çəkən, qışın soyuq şaxtasından, yayın qızmar günəşindən qoruyub,

Azadlığı torpağımızda cücərdən şəxslərdir. Onlar bizim birlik nişanəmiz, Vətən sevdamız, Azadlıq qələbəmizdir. Onlar Vətən rəmzidir. Onlar insan cildində mələkdirlər. O mələkki bizləri insan cildindəki şeytanlardan qoruyurlar. Onları kənardan saatlarca izləmək məni daha da qürurlandırırdı.

Və qəflətən gözüm çöhrələrindəki hüdudsuz sevincə, xoşbəxtliyə sataşdı. İlk öncə heç nə anlamırdım. Sonra əsgərlərdən biri "Aldıq, Qarabağ bizimdir" deyə qışqırdı. Hər şey məlum idi, biz Qarabağı azad etmişdik. Elə bu an yuxudan ayıldım. Küçədə çox böyük çaxnaşma vardı. Maşınların siqnalı, insanların səsi şəhəri lərzəyə gətirmişdi. Hamı çox xoşbəxt idi. Hamının çöhrəsində dərin iztirabdan sonra yenicə cücərməyə başlayan inam, sevinc toxumu var idi. O gün hamı bir idi, yumruq kimi bir, birliyə sarılıb sona kimi əzmini qoruya bilən Xalqa kim nə edə bilərdiki? Əl-ələ verib üçrəngli bayrağa bürünüb torpağına- Qarabağına dönən xalqı kim dayandıra bilərki? Həm qürur həm sevinc həm həyəcan, biraz da hüzn vardı hər kəsin içində. Hər kəsin gözlərində, illərin həsrət körpüsünü dağıdıb, ayrılığa sədd çəkən işıq vardı. ALLAH ım, necə gözəl yaraşarmış qələbə bir xalqa. Otuz ildir həsrətin məhbusu olduğu qəlblər qayıdırdı Qarabağa. Qayıdırdıq evimizə. İllərdir açarları sandıqları qoruyub saxlayan analarımız qayıdırdı evinə. Əvvəl Qarabağ deyəndə qəlbimiz sızlayır, dərin iztirab içində boğulurduqsa, indi Qarabağ bizim üçün qələbənin, zəfərin, birliyin simvolu idi. Alınmışdı tökülən qanların qisası. Alınmışdı Xocalının, Şuşanın, Kəlbəcərin, Qubadlının, Laçının, Füzulinin, Cəbrayılın, Zəngilanın qisası. Əlində avtomat sayca çox olan düşmənin üstünə tək gedən Mübariz İbrahimovun, erməni zabitini əli ilə boğaraq öldürən Cəbrayıl Dövlətzadənin, hər şeyin onun adı ilə başladığı General Polad Həşimovun, Polkovnik İlqar Mirzəyevin qisası alınmışdı.

Mənə qəribə görünsə bu qələbə xəbərini mənə yuxumdakı o əsgərlərin çatdırması idi. Onlar ağ qanadlarda, ağ libasda idilər. Bəli, onlar artıq Şəhidlik zirvəsinə yüksəlmişdilər. Həmişə ALLAH dan səngərə gedib, döyüşün qızğın vaxtında əsgərlərimizi eyni zamanda şəhidlərimizi sağ olaraq görməyi istəyirdim. Və ALLAH 18 yaşlı qızın arzusunu yerinə yetirmişdi. Mən yuxumda qələbəmizin şahidi olmuşdum. İndi bu 10 milyon Azərbaycanlı evinə qayıdır. Bir vaxt ağrı, acı, min bir iztirabla tərk etdikləri torpaqlarına qayıdırlar. İllər ötsə unuda bilmədikləri, vurduğu yaraları sağalda bilmədikləri evlərinə qayıdırlar.

Bu hissi sözlə ifadə etmək mümkün deyil düşünürəm. Otuz il əvvəl göz yaşları içində çıxdığımız torpaqlara, çöhrəmizdə təbəssümlə qayıdırıq. Bizim aramızda şəhidlərimiz də var. Mən yanılmırdım, onlar tam bir mələk idilər. Onlar qanadları arasında bizi qoruyur, əllərimizdən tutaraq Qarabağa aparırlar.

Mən 18 yaşlı bir qızam. Qarabağı heç vaxt görməmişəm. Amma valideynlərim həmişə mənə ordan bəhs ediblər. Bununla da qəlbimdə Qarabağ sevgisiylə böyümüş, həmin sevgini də özümlə birgə böyütmüşəm. Əvvəlki inşalarımda həmişə yazırdım" mən inanıram bir gün gələcəkki biz əl ələ verib, əzəli torpaqlarımıza qayıdacağıq". Həmin gün gəldi Qarabağım. Gözlə bizi, qollarımızı açıb qoynuna tərəf qaçırıq. Biz səni dirçəldəcəyik. Həsrətində olduğun şanlı səhifələr gələcək, və keçmişin qanlı səhifələrini siləcək, məhv edəcəyik. Bu gün sən Azadsan! Və bu gün o üçrəngli şanlı bayraq düz mərkəzində dalğalanır.

Belə Qarabağım.. Deyirdilər tamam yadıq, başqayıq biz, bilmirdilər ki, doğmadan da doğmadır bizim qəlbimiz.

*Lumu İSPƏNDİYARZADƏ*

Torpaq uğrunda ölən varsa vətəndir!

10.11.2020.....Hər bir azərbaycanlının son nəfəsinə qədər unutmayacağı tarix. 27 illik həsrət yükünün çiyinlərimizdən götürüldüyü gün. Hər qarış torpağında cənnəti tapdığımız ana yurdumuzun - Qarabağın bizi qarşılamaq üçün qollarını geniş açdığı gün. Nə sınaqlardan keçdik bu günləri görmək üçün. Necə bəlalar çəkdi başımız. Hər gün yanıb qovruldu ürəyimiz. Əzəli düşmənlərimiz olan ermənilərin sinəmizə çəkmədiyi dağ qalmadı. İşğalçı ermənilərin vəhşilikləri nəticəsinə minlərlə insan ata-baba yurdlarından didərgin düşdü. Hansı xalq qışın soyuğunda, qarın üstündə minlərlə əliyalın insanı qətlə yetirər? Hansı xalq hələ övladını qucağına almamış ananın övladını tələf edər? Hansı xalq dünyanın məsum mələklərinin-uşaqların qanını ailəsinin gözü önündə tökər? Bunun bir cavabı var: erməni vandalları. Bəzən yaşamaqdan utanıram.Arzusu ürəyində qalmış minlərlə körpə məzarda yatarkən mən isti evimdə yatmağa utanıram.Nə günahı vardı axı bu xalqın? Heç vaxt özünün olmayana göz qoymayan, hər kəsə mərhəmətlə yanaşan bir xalqın başına bu cür bəlaların gətirilməsi nə dərəcədə doğru idi? Ermənilər təkcə xalqımıza deyil,onun mədəniyyətinə qarşı da təcavüzkar siyasət yürütmək ilə necə mərhəmətsiz, namərd bir xalq olduqlarını bir daha sübut etdilər.İllər keçsə də Azərbaycan xalqı bu vəhşilikləri unutmayacaq. Heç vaxt bu ədalətsizliklə barışmayacaq.

Nəhayət ki, gün gəldi, haqq-ədalət bərpa olundu. 27 illik həsrətin bitməsi üçün elə ilk addım da 27 sentyabrda atıldı. Azərbaycanın müzəffər ordusunun erməni ordusuna qarşı həyata keçirdikləri əks-hücum əməliyyatı nəticəsində işğal altında olan torpaqlarımız azad olundu. Hər gün onlarla kəndin, şəhərin azad olunma xəbərini aldıq onların sayəsində. Ali baş komandan və onun rəşadətli ordusu bizə illərdi gözlədiyimiz sevinci yaşatdı. Bunun üçün biz son nəfəsimizə kimi ordumuza minnətdar olmalı və heç vaxt onları unutmamalıyıq.

Belə bir ifadə var: “Torpaq uğrunda ölən varsa vətəndir”.Bəli, qırx dörd günlük haqq mübarizəmizdə vətənin hər qarışı uğrunda canından keçən igidlərimiz oldu.Onların qanı ilə alındı doğma torpaqlarımız .Onlar ən uca zirvəyə-şəhidlik zirvəsinə ucaldılar. Kimdir şəhid? Bu suala verəcəyimiz heç bir cavab onların qiymətini, məqamının aliliyini əks etdirə bilməz.Amma hər cümlə şəhid adının necə müqəddəs olduğunu əlbəttə ki, bizə izah edər.

Şəhid-dünənimizin qəhrəmanlıq simvolu,bu günümüzün qeyrət salnaməsi, sabahımızın əbədi örnək təmsilçisidir. Şəhid - qaranlıq keçmişimizdən parlaq sabahımıza boylanan azadlıq pöhrəsi, ucalığa can atan qəlb dünyamdır. Şəhid kəliməsi elə bir hikmətli kəlimədir ki, həmin kəliməni hər kəs anlaya və anlada bilməz.

Qırx dörd günlük azadlıq mübarizəmizdə şəhid adını qazanan çoxsaylı igidlərimiz oldu. Vətənimizin ərazi bütövlüyü uğrunda canından keçən igidlər arasında mənim də anadan olduğum rayonunun oğulları var. Bu bizim üçün nə qədər ağrı-acılı oldusa, o qədər də qürurverici oldu. Mən hər zaman xalqımızın azadlığı uğrunda canından keçən igidlərimizin sırasında mənim də doğulduğum rayonun vətəndaşlarının olması ilə fəxr etmişəm. Belə igid oğulların heç bir zaman unudulmaması üçün isə əlimdən gələni etmişəm və edəcəyəm. Bu mənim və mənim kimi minlərlə azərbaycanlı vətəndaşın borcudur.

İndi isə sizə kəndimizin şəhidləri sırasında yer alan, hər birimizin fəxri, 22 yaşında bütün sevdiklərinə, arzularına vida edən Elxan Məmmədov haqqında danışmaq istəyirəm.

**Şəhid Məmmədov Elxan İlqar oğlu** 15.05.1998-ci ildə Qobustan rayon Cəyirli kəndində anadan olmuşdur. O, həyatın çətinlikləri ilə hələ uşaq yaşlarında olarkən üzləşmişdi. Zəhmətkeş,

əliaçıq, yumuşaq qəlbli və mərd biri olması ilə hər zaman yaşıdları arasında fərqlənmişdir. Kiçik yaşlarından zəhmətə öyrəşmiş, işindən qazandığı məvacib ilə hər zaman kimsəsiz ailələrə köməklik etmişdir. Çünki onu böyüdən ağsaçlı, zəhmətkeş ana övladını tərbiyəli, vətəninə layiqli bir övlad kimi yetişdirmişdi. Şəhid Elxan Məmmədov 8 iyul 2016-cı il tarixində Həqiqi Hərbi Xidmətə yollanmış, Ağcabədi rayonunun Qiyaməddinli kəndində xidməti əsgər olmuş və 10 yanvar 2018-ci il tarixində isə hərbi xidməti başa vurmuşdur. Xidmətini bitirdikdən sonra isə ailəsi ilə yaşadığı evi yenidən inşa etmiş və həyətində böyük bir bağça salmışdı. Elxan hər zaman ağacları və çiçəkləri çox sevərdi. O, hər bir canlıya qayğı göstərdiyi kimi, ağac və çiçəklərə də xüsusi qayğı göstərirdi.

Elxanın vətənə sevgisi o qədər böyük idi ki, hər gün müharibənin başlanmasını, torpaqlarımızın azad olunmasını arzu edirdi. Onun ən böyük arzularından biri də Qarabağ torpaqlarına ayaq basmaq idi. Nəhayət, Tanrı onun dualarını duydu və torpaqlarımızın azad olunması uğrunda döyüşlər başladı. Müharibənin başlandığı ilk gündən cəbhəyə getmək istəsə də bunu ailəsinə deməmişdi. Çünki anası onu çox sevərdi,evin kiçik övladı olduğu üçün hər zaman hər kəsin sevimlisi idi Elxan. Amma vətən sevgisi onun rahatlığını əlindən almışdı.Hər an cəbhəyə getmək, erməniləri məhv etmək və bayrağımızı Qarabağda sancmaq istəyi ilə alışıb yanırdı o mərhəmətli ürəyi. Bu sevgi ilə Elxan anasına heç bir söz demədən Səfərbərlik üzrə Hərbi Xidmətə çağırış məntəqəsinə yollanaraq könüllü olaraq müharibəyə yola düşmək istəyini öz ərizəsi ilə təstiq etdi.O bu qərarını sevdiyi xanıma və ən yaxın dostuna bildirmişdi.

Zaman yetişdi.....21 sentyabr 2020-ci ildə igid Elxan hərbi təlimə yollandı. Və 27 sentyabrda Azərbaycanın ərazi bütövlüyü uğrunda başlamış müharibədə mərdliklə ön cəbhədə könüllü olaraq iştirak etdi. Onun yalnız bir şüarı vardı: "Öldü var, döndü yoxdur". Elə bu şüarla da mənfur düşmənin üzərinə hücuma keçdi qəhrəmanımız. Heç bir güllə, mərmi qəlpəsi, tank səsi onu bu mübarizədən yayındıra bilməzdi.Ona hər zaman "Elxan, necəsən?" deyəndə, "Hər şey əladır, azruma çatıram, çox xoşbəxtəm",-deyə cavab verərdi. Elxan həmişə ailəsi və sevdiyi ilə danışanda yaxşı olduğunu, hər birini çox sevdiyini və sağ-salamat geri dönəcəyini deyirdi. O, sevdikləri ilə son dəfə 9 oktyabr tarixində əlaqə saxladı.Sanki şəhid olacağını hiss etmişdi. Hər kəsə "haqqınızı halal edin, sizi çox sevirəm,bunu unutmayın"demişdi. Bu zəng Elxanın sonuncu zəngi oldu. O gündən ananın gözləri yaşlı qaldı. Sevdiyi və dostları hər gün onun yolunu gözlədi. Amma nə bilərdilər ki, Elxan bir daha o yollarla geri gəlməyəcək, bir daha zəng etməyəcək?! Bir gün telefon çaldı. Ana "Elxandır, balamdır" - deyərək telefonu tez əlinə aldı. Təssüf ki, o zəng Elxandan deyil. Zəng xəstəxanadan idi.Elxanın yaralanması xəbəri ananın qəlbinə köz basdı. Son beşiyi, gülən üzü,mehriban, mərd balası Elxanın yanına getmək üçün ayağı yalın, başı açıq yola düşdü. Elxan 11oktyabrda Füzuli uğrunda gedən döyüşlərdə ağır yaralanmış və hərbi hospitala yerləşdirilmişdi. Hər kəsin bir duası vardı: "Elxan tezliklə ayağa qalxsın və ailəsinin yanına qayıtsın". Lakin şəhid Elxan Məmmədov 19 günlük həyat mübarizəsindən sonra həyata əbədi olaraq gözlərini yumdu. Onun bütün döyüş yoldaşları Elxanın igidliyindən, vətən sevgisindən və yoldaşlarına olan sədaqətindən fəxrlə danışır. Elxanın vəfatı təkcə sevdiklərinin deyil, bağçasının güllərinin də boynunu bükdü. Ağaclarının yarpaqları saraldı, güllərinin ləçəkləri də töküldü onun gedişi ilə. Elxan bizim qəlbimizdə hər zaman mərhəmətli, vətənpərvər biri olaraq yaşayır və yaşayacaq.

Kəndimin digər igid oğlu isə üç bacının bir qardaşı, hər zaman "bu vətənin hər qarışına canımı da fəda edərəm"- deyən baş leytenant Murad İbadovdur.

**İbadov Murad Yusif oğlu** 29.12.1993-cü ildə Qobustan rayon Cəyirli kəndində anadan olmuşdur. Murad uşaq yaşlarından sakit təbiətli olmuş, dərslərində hər zaman məsuliyyətli şagird olması ilə seçilmişdir. Məktəb illərindən başlayaraq hərb sənətinə rəğbət bəsləmiş və təhsilini də bu sahədə davam etdirmişdir. Murad hərb sənətində də məsuliyyətli və bacarıqlı olması ilə seçilmişdir.Hər zaman ailəsinin başını uca edən igidimiz, ucaldığı şəhidlik zirvəsi ilə də nəinki ailəsinin, bütün onu tanıyanların başını uca etdi.Uşaqdan böyüyə hər kəs onun mehriban, hər zaman xeyirxah biri olduğunu söyləyir.Əlbəttə şəhidlik belə mərhəmətli qəlbə sahib insanlara nəsib ola

bilər yalnız. Murad İbadov hərbi xidmətini tamamladıqdan sonra könüllü olaraq xidmətdən artıq hərbçi olaraq fəaliyyətə başlamışdır. Tərtər rayonu 703 saylı hərbi hissədə Baş Leytenant olaraq xidmət etmişdir. Muradın da qəlbi vətən sevgisi ilə döyünürdü. Bunun göstəricisi idi ki, 27 sentyabrda döyüşlər başlayan kimi Murad döyüşə yollanmış və çoxsaylı erməni əsgərini məhv etmişdir. Bir gün Murad kəşfiyyat məqsədi ilə dostları ilə birgə düşmən ərazisinə yola düşdü.Bu kəşfiyyat onun son kəşfiyyatı idi. Murad mənfur düşmənin ərazidə yerləşdirildiyi minaya düşərək qəhrəmancasına vətən uğrunda şəhid oldu. Muradın ailəsi tam 34 gün ondan nə bir zəng, nə də bir xəbər ala bildi. Hər kəs Muradın sağ-salamat geri dönəcəyi günü səbirsizliklə gözləyirdi. Çox təssüf ki arzular da Muradın həyatı kimi yarım qaldı. Muradın dəfn mərasimində hava çox yağışlı oldu... Göylər belə bir igidin aramızdan getməsinə çox üzülürdü.

Təbii ki, bu müharibədən qazi olaraq da qalib geri dönən igidlərimiz də oldu. Onlardan biri də mənim sinif yoldaşım, kəndimizin igid oğlu Tuqay Şirinzadədir.

**Şirinzadə Tuqay Rövşən oğlu** 07.07.2002-ci ildə Qobustan rayon Cəyirli kəndində anadan olmuşdur. Tuqay 4 aylıq hərbi xidmətdə olduğu müddətdə vətənin keşiyində layiqincə durmuş, müharibə başlandığı dövrdə isə ön cəbhədə yer almışdır. Füzuli uğrunda gedən döyüşlərdə Yuxarı Əbdürrəhmanlı kəndində qolundan və kürəyindən qəlpə yaraları almışdır. Yaralı olsa belə, "mən döyüşə getmək istəyirəm, məni tez sağaldın" - deyən igid əsgər daim vətən sevdalısı olmuşdur. Lakin səhhətində olan problemlərlə əlaqədar olaraq o, döyüşlərdə yenidən iştirak edə bilməmişdir. Bu gün hər kəs qazimiz Tuqay ilə fəxr edir. 10 noyabr tarixində qələbə yürüşündə iştirak edən Tuqay həyatının ən xoşbəxt günün bu gün olduğunu deyirdi. Hər kəs qazi ilə şəkillər çəkdirir, onu bu qələbə münasibətilə təbrik edirdi. Axı biz bu qələbəni həmdə qazilərimizə borcluyuq.

Mən vətən uğrunda canından keçən bütün şəhidlərin ruhu qarşısında baş əyirəm. Fəxr edirəm ki, mənim də kəndimin, obamın şəhidləri, qaziləri var.

Bu gün hər birimizin ən vacib vəzifələrindən biri də qələbə münasibətilə bu “Şəhidlər xiyabanını”ziyaret etməkdir. Bu günləri görmək üçün hər zaman arzularla yaşayan hər bir igidin sayəsində biz bu gün yaşayırıq. Onları igidliyi sayəsində yaşayırıq. Onlar bu gözəl günləri görmədi amma ruhları şaddır ki, qisaslari alındı. İller öncə uğrunda canlarından keçdiyi vətən torpaqları artıq düşmən işğalından azad olundu. Bu günlərdə hər birimizin borcu şəhidlərimizi unutdurmamaq, şəhid ailələrinə hörmət bəsləməkdir.

Uca Tanrıdan vətənin azadlığı uğrunda canından keçən hər bir şəhidə rəhmət, ailələrinə səbr, qazilərimizə isə şəfa diləyirəm.

Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!



***Şəkil 1. Şəhid Elxan Məmmədov***



***Şəkil 2 Şəhid Murad İbadov***



***Şəkil 3. Qazi Tuqay Şirinzadə***



*Şəhla ƏHMƏDOVA*

Türk xalqı hər zaman döyüşkənliyi, cəsarəti ilə fərqlənmişdir. Mete xaqandan, Atilladan Mübarizə, Polada kimi. Azərbaycan türkü olaraq biz əsrlərlə ermənilərin təcavüzünə məruz qalmışıq. Doğma yurd-yuvamızdan didərgin düşmüşük. Fəqət bu uzaqlıq, bu həsrət heç vaxt inamımızı, ümidimizi söndürməmiş, daima "o günün" gələcəyi zamanı gözləmişik.

XX əsrin sonlarında, bir zamanlar ermənilərin yaşaması üçün köçürüldükləri əzəli Azərbaycan torpağı olan Qarabağa sahib olmaq üçün bu mənfurlar, soyqırımlar törədərək, minlərlə dinc əhalini qətlə yetirdilər.. Minlərlə, milyonlarla həmvətənlimiz doğma yuvasından ayrı düşdü, minlərlə gəncimiz, əsgərimiz əbədiyyətə uğurlandı. Neçə-neçə anannın, atanın, qız-gəlinin, uşağın gözü yaşlı qaldı. Neçə igidin arzuları, istəkləri onlarla birgə göyə ucaldı. Ancaq bu gedişin dönüşü də olacaqdı...

Bu yolda ilk əsas qələbəmiz 2016-cı ilin Aprel döyüşlərində ermənilərin sülhü pozmasıyla başlayan müharibədə Azərbaycan ordusunun Füzulinin Lələ təpə yüksəkliyini nəzarəti altına alması yeni bir qələbəmiz idi. Beləcə Cəbrayılın Cocuq-Mərcanlı kəndinin təhlükəsizliyi də təmin olundu. Aprel döyüşlərində Şükür Həmidov, Murad Mirzəyev, Samid İmanov kimi milli qəhrəmanlarımız iştirak etmiş, göstərdikləri şücaətlə fərqlənmişdirlər.

Növbəti dəfə - 12 iyul 2020-ci ildə ermənilərin bizə qarşı planlaşdırdıqları artilleriya hücumu bilinəndən sonra, atəşkəsin pozulduğu qənaətinə gəlinərək Tovuz istiqamətində döyüşlər başlandı. Tovuz döyüşlərində 14 iyul 2020-ci ildə general mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və beş nəfər hərbi qulluqçu həlak olmuşdur. Generalımızın şərəfinə Türkiyədə park açılmış, onun büstü hazırlanmış, "Polad generalımız" adlı kitab nəşr edilmişdir. 2020-ci ildə Şəhidlər xiyabanının yerləşdiyi küçəyə Polad Həşimovun adı verilmişdir. Polkovnik İlqar Mirzəyevin də şərəfinə onun ölümündən bir ay sonra barelyefi hazırlanmışdır. Xalqımız qəhrəmanlarını əsla unutmur.

27 sentyabr 2020-ci il tarixi isə Azətbaycan xalqının yaddaşından əsla silinməyəcək bir iz buraxmışdır. Bu tarix otuz iki ildən bəri Qarabağ həsrətilə yaşayan xalqımızın Vətən müharibəsinin başladığı tarixdir. Ermənistanın növbəti dəfə atəşkəsi pozması ciddi müharibəyə səbəb oldu. Bütün Azərbaycan xalqı prezidentimizin dediyi kimi bir yumruq oldu və biz o yumruqla düşməni əzəcəkdik! Qarabağ müharibəsinin yeni mərhələsi beləcə başlamış oldu.

27 sentyabr 2020-ci il çıxışında cənab Ali Baş Komandan İlham Əliyev artıq düşmənə güzəşt olmayacağını, onlara lazımi cavab verildiyini və axıracan da veriləcəyini bildirdi. Onsuzda tək yumruq halında birləşən xalqımız, cənab prezidentin bu sözlərindşn daha da ruhlandı. Minlərlə gəncimiz, qadınımız, kişimiz könüllü kimi cəbhəyə yazıldı. Ölümdən tək zərrə qədər qorxmayaraq Qarabağımızı geri qaytarmaq üçün canlarını heçə saymağa belə razı olduqlarını göstərdilər. Bu yurd igidlər, mərdlər diyarıdır. Bu torpaq igid qanıyla qarışmışdır. Bu xalqı heç bir qüvvə əzib, yox edə bilməz!

Bütün şəhərlərimiz Azərbaycanın üçrəngli bayrağı ilə bəzənmişdi. Bununla belə, hər şəhid xəbəri ölkədə matəmlə qarşılanırdı. Bütöv bir xalq olaraq sevincimiz sevinc, kədərimiz kədər idi.

Bu şəhidlərimizin bir hissəsi ilə sizləri tanış etmək istərəm.

2009-cu ildən hərbidə gizir işləyən, tank komandiri olan Elmir Məmmədov 27.09.2020 tarixində Füzuli uğrunda gedən döyüşlərdə şəhid oldu.

Vətən müharibəsinin ilk şəhid həkimi Turqut Xəlilbəyli olmuşdur. O öz istəyi ilə cəbhəyə getmiş və şəhid olmuşdur.

27 il öncə Qarabağ döyüşlərində ayağını itirən qazimiz Etibar Ağakişiyevin oğlu Nurlan Ağakişiyev 29.09.2020 tarixində- döyüşlərin üçüncü günündə şəhid oldu. Atası oğlu ilə fəxr etdiyini və lazım gələrsə özünün də vuruşmağa hazır olduğunu bildirmişdi.

Bu cür döyüşkən, igid, qəhrəman bir xalqı məğlub etmək olardımı? Hərçənd düşmən tərəf sivillərimizə- Gəncə, Bərdəyə raketlər, bombalar ataraq bizi zəiflətməyə, incitməyə çalışsa da, bu mümkün olmadı. Xalqımız ermənilərin bu həmlələrindən daha da ruhlandıqlarını, nifrətlərinin min qat daha artdığını dilə gətirirdi.

Adının haqqını verən igidimiz Hünər Məmmədov öz silahdaşları Elvin Mədətov və Rüfət Əsədullayevlə birlikdə torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə düşmənin yeddi tankını, bir PDM-ni, bir silah-sursat dolu avtomobil texnikasını və iki müşahidə məntəqəsini məhv etmişdir. Bu da düşməni tamamilə zəiflədib əldən salmışdı. Həlak olan sivillərimizin, indiyə qədər şəhid olan igidlərimizin qanını belə alırdıq. Başqa bir igidimiz Ceyhun İsmayıl oğlu Şuşada gedən döyüşlərdə ermənilərlə dolu maşını partlatmışdır, lakin bir- neçə dəqiqə sonra o, snayperlə vurularaq şəhid olmuşdur.

Bu çətin dönəmdə Ali Baş Komandanımız cənab İlham Əliyevin çıxışları, xalqımıza, ordumuza verdiyi dəstək əvəzolunmazdır. Söylədiyi hər bir sözün şüara çevrilməsi xalqın prezidentimizə olan sevgi və inamından irəli gəlirdi. Ölkənin demək olar ki, hər yerində prezidentimizin çıxışlarından bir söz, bir cümlə deyilirdi.

II Qarabağ müharibəsinin növbəti şəhid həkimi Eldar Abdullayev oldu. Öz canı bahasına bəlkə də yüzlərlə igidimizi xilas etmişdi..

Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab prezident İlham Əliyevin də rəhbərliyi altında rəşadətli Azərbaycan ordusu hər gün zəfərlərinin sayını artırırdı. Elşən Abdullayev, Mətləb Həsənov, Qasım Qurbanov, Fərid Aslanov, Muxtar Məmmədov, Elvin Məmmodov, Nail Qasımov, Vüsal Hacıyev, Məhəmməd Axundov, Ağabala Manafov bu zəfərlərin banilərindəndirlər.

2016-cı ilin aprel döyüşlərində Milli qəhrəmanımız Şükür Həmidov 22.10.2020 tarixində Qubadlıda gedən döyüşlərdə şəhid olmuşdur.

Vətən müharibəmizin ilk qadın şəhidi hərbi tibb qulluqçusu Arəstə xanım olmuşdur. O, yaralı hərbçilərimizi döyüş meydanından çıxaran zaman həlak olmuşdur.

Bu müharibədə daha yeni məzun olmuş cavanlarımız da var. Elə Bakı Dövlət Universitetinin 2020-ci il məzunları Nicat Əhmədov, Seyfəddin Dadaşov, Cavid Manafov, Hüseyn Quliyev Qarabağ uğrunda gedən döyüşlərdə şəhid olmuşdurlar.

Biz qadın- kişi demədən vuruşmağa, yeri gələndə can verməyə də hazırıq. Bunu himnimiz də təsdiq edə bilər:

"Səndən ötrü can verməyə cümlə hazırız!"

"Səndən ötrü qan tökməyə cümlə qadiriz!"

08.11.2020 bu tarix Azərbaycanın ilk Zəfər bayramını qeyd etdiyi tarixdir. Bu tarix Qarabağımızın ürəyi- Şuşanın qaytarıldığı gündür. Şuşada üçrəngli bayrağımızın dalğalandırıldığı gündür. Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyev Şuşa şəhərinin azad olunduğunu bu sözlərlə elan etdi:

" ƏZİZ ŞUŞA, SƏN AZADSAN! ƏZİZ ŞUŞA, BİZ QAYITMIŞIQ! ƏZİZ ŞUŞA, BİZ SƏNİ DİRÇƏLDƏCƏYİK!"

Artıq xalqımızın illərdən bəri gözlədiyi həmin gün gəlmişdi. Şəhidlərimizin ruhunun şad olduğu gün gəlib çatdı. 10.11.2020 tarixi Qarabağ müharibəsini qazandığımız tarixdir! Artıq heç bir igidimizin qanı yerdə qalmadı! Bu tarix Azərbaycan xalqının Qələbə bayramıdır!

Mən qürur duyuram ki, belə bir xalqın övladı, belə bir ölkənin vətəndaşıyam. Bu yolda xalqı, vətəni üçün əlindən gələni əsirgəməyən, sevimcimizi öz sevinci, kədərimizi öz kədəri bilən Ali Baş Komandanımıza, Azərbaycan Respublikasının prezidentinə, Ulu öndər Heydər Əliyevin layiqli

davamçısına Azərbaycan xalqı olaraq minnətdarıq. Artıq "o gün olsun ki" yox, "o gün bu gündür" deyiləcək!

"Qarabağ Azərbaycandır!" ifadəsi qələbəmizin rəmzidir!



***Şəkil 1.  Hünər Məmmədov, Elvin Mədətov, Rüfət Əsədullayev***




***Şəkil 2. Vətən müharibəsinin ilk şəhid həkimi Turqut Xəlilbəyli***



***Şəkil 3. İkinci Qarabağ müharibəsinin ilk xanım şəhidi, hərbi tibb qulluqçusu Arəstə Baxışova***

*Ülviyyə MİKAYILOVA*

Tarixi keşməkeşli olsa da, daimi uğurları olan Azərbaycan yeni tarix yazmağa davam edir.

Torpaqlarinin 20 faizini itirməklə nəticələnən birinci Qarabağ müharibəsində bu millətin düşməninin nə qədər qəddar, vəhşi, qana susamış insanlar olduğu dəfələrlə sübut edilmişdir. Lakin bəzi təşkilatların qətnamələr, qanunlar qəbul etməsinə baxmayaraq, bu günə qədər bu məsələyə kəskin münasibət bildirilməmişdir. Hələ keçən əsirdən başlayaraq Ermənistanın Dağlıq Qarabağa ərazi iddiası qaldırması və onlara hər dəfə layiqli cavabın verilməsi təəssüflər olsun ki, gələcəkdə olan müharibələrin qarşısını ala bilmədi və bunun nəticəsidir ki, minlərlə insan öz doğma yerlərindən didərgin oldular, vətənləri uğrunda canlarından keçib bu dünyada sağalmaz iz buraxdılar, bəziləri isə əsir və itkin düşdülər. Sonra isə hakimiyyətin dəyişməsi-Heydər Əliyevin prezident olması hakimiyyətə savadlı kadrların gətirilməsi, ordunu yenidən qurması və bu kimi hadisələrin yenidən baş verməməsi üçün lazimi addımlar atmışdır. Azərbaycanın cəsur oğulları düşmənin bu yurddan daha bir qarış torpaq almaması üçün mərdliklə bu vaxtlara qədər vuruşmuşdurlar.Nəhayət, 1994-cü ildə mayın 8-də Bişkek protokolu imzalandı.Protokolda hərbi əməliyyatların müvəqqəti olaraq dayandırılması nəzərdə tutulurdu.Lakin ermənilər qanunlara məhəl qoymayıb atəşkəsi dəfələrlə pozmuşdular, əsasən də mülki əhalimizi atəşə tutmuşdular. Biz sülh tərafdarıyıq, Ali Baş Komandan hər iki xalqın zərər görməməsi üçün bu günə qədər əlindən gələni etnişdir, lakin Ermənistan bu məsələdə maraqlı deyidi və öz bildiyi , sonunun hara getdiyi məlumun olmayan yolda irəliləyirdi. 2016-cı ildə aprelin 1-dən 2-nə keçən gecə Ermənistan Silahlı Qüvvələrinin təxribat törətdiklərinə görə Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatına başladı və Füzuli, Cəbrayıl, Ağdərə rayonlarının işğal altında olan bəzi əraziləri azad olundu. Atəşkəs haqqında imzalanan sazişdən bəri ən şiddətli döyüş idi. 5 apreldə hər iki tərəfin razılığı ilə yenidən atəşkəs elan olundu. ’’Aprel döyüşləri’’ adadlanan bu döyüşdə azərbaycanlılarda və orduda əvəzolunmaz ruh yüksəkliyi baş verdi və xalqın prezidentə , orduya olan inamı daha da artdı. Artıq bu inam sarsılmaz qüvvəyə çevrildi. Azad olunan yerlər yenidən canlandırıldı , evlər , məktəblər , abidələr tikildi, hər yer abadlaşdırıldı. İnsanlarda işğal altında olan digər torpaqların da işğaldan azad olunmasına inam artdı. Təsadüfi deyil ki, artıq biz ürəklərə sığmayan, coşub daşan , insanlara qürur hissi keçirdən o anı yaşayırıq.

2020-ci ildə iyul ayında hələ gözü qandan , torpaqdan doymayan mənfur düşmən yeni ərazilər ələ keçirmək kimi fikirlərlə şüursuz atdıqları addımda Azərbaycan Ordusu tərəfindən hücumun qarşısı alındı.Düzdür, vətən yolunda canından keçən minlərlə şəhidimiz oldu, bunlardan Həşimov Polad, Mirzəyev İlqar, Əhmədov Namiq, Novruzov Anar , Zeynallı İlqar, Babayev Yaşar , Mustafazadə Elçin, Sadıqov Vüqar, Məmmədov Elşad , Daşdəmirov Xəyyam iyul döyüşlərində qəhramancasına vuruşaraq şəhidlik zirvəsinə yüksəldilər.Bu xalqın sevdiklərini vətənə əmanət edib ürəklərində böyütdüyü torpaq sevgisi ilə vətənə xidmətə gedən igidləri var.

Növbəti məğlubiyyətlə kifayətlənməyən azğın, qaniçən düşmən həmin ilin 27 sentyabrında yenidən hücuma keçdi. Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqəlirini intensiv atəşə tutmuşdur və müzəffər Azərbaycan Ordusu qızıl hərflərlə tarix – Qarabağın yeni tarixini yazmağa başladı. Müqəddəs ordunun məğlubolunmazlığını, dözmünü görən sarsılan Ermənistan Baş Naziri neçə illərdir bu hadisələrə , qətliyamlara soyqırımına göz yuman bəzi güclü dövlətlərə və təşkilatlara üzünü tutdu. Heç birindən istədiyi cavabı ala bilməyən Baş Nazir bu dəfə həmin dövlətlərə zəng vurmağa başladı. Yenə də istədiyinə nail ola bimədi.

Qarşıdurmalar nəticəsində Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, 28 sentyabrda qismən səfərbərlik elan edildi. Qarşıdurmalar sürətlə alovlanmış və II Qarabağ müharibəsinə çevrilmişdir. Bir çox ölkələr və Birləşmiş Millətlər Təşkilatı münaqişəni qınamış, mənalı danaşıqlara çağırımışdır. Müharibə dövründə atəşkəs imzalansa da, Ermənistanın mülki əhalini atəşə tutması ilə atəşkəs pozulmuşdur, Gəncə və Bərdə terroru törədilmişdir, binalar, məktəblər hədəfə alınmışdır. Nəticədə 92 mülki şəxs həlak olmuş, 404 şəxs yaralanmışdır.

Nəhayət, şanlı ordumuz neçə illərdir düşmən tapdağı altında olan torpaqlarımızı azad etməyə başladı. Deməк olar ki, hər gün Ali Baş Komandan bizlərə şad xəbərləri çatdırdı. Ermənistanın bir çox silahları, minaatanları , tankları və s. məhv edilmiş, çoxusu qənimət kimi götürülmüşdür.

Mən bu esseni yazarkən məcburi köçkün statusumuzun ləğv olunması xəbərini aldıq, 8 noyabr – prezidentimizin xalqa müraciəti günü mədəniyyət beşiyi , tarixi lap qədimləri əhatə edən Şuşamızın işğaldan azad olunması xəbərini aldıq. Düzdür, mən Şuşada doğulmasamda , Qarabağımızı görməsəm də qəlbim, ruhum, cismim hər an oranı görməyi arzulayırdı. Çox şükür ki, mən və yurd- yuvasına 28 il həsrət qalmış insanların bu arzusu gerçəkləşdi. Bu sevincdən çox keçmədi ki, noyabrın 10-u üçtərəfli sazişlə düşmənin təslim olunduğunu və işğal olunan digər torpaqların da tez bir zamanda Azərbaycana qaytarılacağını Cənab İlham Əliyev xalqa bildirdi. Bu xəbər həyatımız boyu aldığımız ən gözəl xəbər idi. Sevincimiz yerə-göyə sığışmadı. Axı o torpaqlar bizlərə məxsusdur.

O gün tarixə qələbə günü kimi daxil oldu. Hər kəs; balacadan böyüyə kimi bu qələbəni qeyd etdi. Neçə illərdir gözlədiyimiz xəbəri eşidib durmaq olmazdı. 44 günlük müharibədə hər kəs Qarabağlı oldu , bir oldu , yumruq kimi birləşdik, ordumuza dəstək olduq. Bu torpaq, bu xalq azadlığı uğrunda , müstəqilliyi, ərazi bütövlüyü uğrunda çox qanlar tökdü, çox göz yaşları axıtdı, ancaq heç bir çətinlik dövlətimizi yıxmadı, çünki bütün çətinliklərə dəydi.

Beləliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq, adı kimi bəxti də qara olan Qarabağın dirçəldilməsi tədbirinə başlanılacaqdır. Keçmişdən bir çox yaralar alan Azərbaycan uğurlu qələbələr, nailiyyətlər əldə etmişdir və etməyə davam edəcək. Məhz bu nailiyyətlər bizim birliyimiz sayəsində olacaq. Biz yeni nəsil çalısmalıyıq ki, vətənimizə layiqli övladlar olaq. Hər zaman dövlətimizin yanında olaq.

Müharibə dövründə Azərbaycana digər dövlətlərdən də dəstək az deyildi, öz mənəvi , humanitar yardımlarını əsirgəmədilər, ədalətin tərəfdarı oldular. Əfqanıstan , Ukrayna , Pakistan , Türkiyə və Şimali Kipr Türk Respublikası Azərbaycana dəstək olduqlarını bildirmişdilər.

Tarixi çox qədim, yaraları dərin olan, Azərbaycan, səninlə qürur duyuram , vətəndaşın olduğum üçün fəxr edirəm. Ulu Öndərimizin dediyi kimi, hər zaman səninlə fəxr edəcəm. Çox yaşasın prezidentimiz, ordumuz, xalqımız. Allah bütün yaralı əsgərlərimizə şəfa versin, şəhidlərimizə rəhmət etsin. QARABAĞ AZƏRBAYCANDIR!

*Sürəyya BAYRAMOVA*

1994-cü ildə Azərbaycan və Ermənistan arasında atəşkəs haqqında saziş imzalanmasına baxmayaraq, 2016-ci il aprel ayının 1-dən 2-nə keçən gecə Azərbaycan və Ermənistan Silahlı Qüvvələrinin Qondarma Dağlıq Qarabağ Respublikasının hərbi birləşmələri arasında hərbi münaqişə baş verdi. Həmin bu döyüşlər 1994-cü il sazişindən sonrakı ən şiddətli döyüşlər idi. Döyüşlər Azərbaycan Silahlı Qüvvələrinin qələbəsi ilə nəticələnmişdir. Talış kəndi ətrafındakı bəzi yüksəkliklər, Cəbrayıl rayonunun Lələ təpə yüksəkliyi və Cocuq Mərcanlı kəndi və bir sıra ərazilərimiz düşmən işğalından azad edilmişdir. Aprelin 1-dən 5-nə qədər gedən döyüşlərdə, böyük uğur əldə edən igid əsgərlərimizin göstərdikləri şücaət Azərbaycan xalqını daha da ruhlandırdı.Bizim igid oğlanlarımız şəhidlərimizin qəhrəmanlığını görüb daha da ruhlanmış və Ali Baş Komandanımız Cənab Prezident İlham Əliyevin bir əmri ilə cəbhə bölgəsinə gedib, mənfur düşmənin işğalı altında olan bütün torpaqlarımızı işğaldan azad etmək uğrunda canlarından keçməyə hazır olduqlarını bildirdilər. Düşmən mövqeyi atəşkəs rejiminin olmasına baxmayaraq, hər dəfəsində atəşkəs rejimini pozurdu. 2020-ci il iyul ayının 12-si günorta saatlarından başlayaraq Ermənistan Silahlı Qüvvələri Azərbaycan Dövlət Sərhəd Xidmətinin Tovuz rayonunda yerləşən mövqelərini artilleriya qurğularından atəşə tutdular. İyul ayının 13 və 14-də də Tovuz rayonu istiqamətində şiddətli döyüşlər getmiş və 14 iyul tarixində atışmalar nəticəsində general-mayor Polad Həşimov, polkovnik İlqar Mirzəyev və 5 hərbi qulluqçu da həlak olmuşdur. 2020-ci il sentyabr ayının 27 si səhər saatlarında Ermənistan Silahlı Qüvvələrinin təxribat törədərək cəbhəyanı bölgələrimizi və yaşayış məntəqələrimizi iriçaplı silahlarla atəşə tutmağa başladılar. Bunun qarşısını almaq və yaşayış mövqelərinin təhlükəsizliyini təmin etmək məqsədilə, Azərbaycan ordusunun komandanlığı tərəfindən qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatı başlaması barədə qərar verilib və İkinci Qarabağ müharibəsi başlandı. 44 gün davam edən müharibə noyabr ayının 10-nu Azərbaycan Silahlı Qüvvələri tərəfindən qələbə ilə nəticələndi. Bu qələbəyə imza atan insanlar da az olmadı. Hansi ki, onlara II Qarabağ müharibəsinin şəhidləri, qaziləri, qəhrəmanları deyirik.Bu qələbə uğrunda canından keçən qəhrəmanlarımızdan biridə Tağıyev Tağı Mərdan oğludur.

**Tağıyev Tağı Mərdan oğlu** 1995-ci ildə mayın 26-sı Sabirabad rayonunun Ətcələr kəndində anadan olmuşdur. O Xüsusi Təyinatlı dəstədə idi. Sumqayıt şəhərində 052-də işləyirdi. Sentyabrın 23-ü sonuncu dəfə evə gəlir ailəsiylə halallaşır və cəbhə bölgəsinə yollanır.

“Sentyabr ayının 23-ü idi. Xüsusi təyinatlı dəstədə olan Tağıyev Tağı Mərdan oğlu evə gəldi. Və ailəsi ilə son dəfə görüşdü. Qarabağ bölgəsinə gedəcəklərini bildirdi. Ailəsindən son dəfə halallıq alaraq özlərinə yaxşı baxmalarını və hər nə olursa olsun pis olmamaqlarını tapşırdı. O başa düşürdü ki, bu gedişin dönüşü olmaya bilər. Anası oğlunun halallıq istədiyini görüb ürəyi dağlandı, onu son dəfə bağrına basıb qoxusunu içinə çəkdi. O da başa düşürdü ki, hər an hər şey ola bilər. Lakin qəbul etmək istəmirdi bu halı. “Heç nə olan deyil, ay oğul, sən Aprel döyüşlərində də iştirak edib böyük şücaət göstərmisən, sağ salamat gedib qayıdacağsan”.

Sentyabrın 27-si səhər saatlarında Erməni Silahlı Qüvvələri cəbhə yanı bölgələri və yaşayış məntəqələrimizi dayanmadan ağır artilleriya qurğuları ilə atəşə tutmağa başladılar. Azərbaycan Silahlı Qüvvəlləri yaşayış məntəqələrimizi qorumaq məqsədi ilə əks hücuma keçməyə məcbur oldular. Müharibə başlayır. Ən ön sırada Xüsusi təyinatlı dəstələr irəlliləyirdi bu dəstənin içində Tağıda vardı.Tağı və onun dəstəsi Cəbrayıl, Füzuli, Zəngilan,Şuşa uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərmişlər. Hər bir qarış torpağın alınmasında yaxından iştirak etmişdir. Vaxt tapdıqca

evə zəng edər, bir kəlmə “mən yaxşıyam, hər şey yaxşıdır” deyib sağollaşardı. Başqa heçnə haqqında məlumat verməzdi. Dostları onun qəhrəmanlığı haqqında bir sıra maraqlı məlumatlar vermişdir. Tağı işğal altında olan torpaqlarımızın alınmasında yaxından iştirak etmiş, işğaldan azad edilən torpaqlarımızın mənfur düşmən tərəfindən hazırlanmış tələlərdən təmizləmişdir.Əsgər yoldaşları tərəfindən çəkilən son video çəkilişdə, Tağı bir qarış belə torpaqlarımızın düşmən pəncəsində qalmayacağını,bütün Qarabağımızı mənfur dümındən azad edəcəklərini xüsusi ilə vurğulayır. Qarabağın döyünən ürəyi olan Şuşa şəhərinə çatırlar.

Tağı Şuşa uğrunda gedən döyüşlərdə son nəfəsinə qədər vuruşmuşdur. Bildiyimiz üzrə Şuşadakı döyüşlərdə demək olarki, əsgərlərimiz əlbəyaxa vəziyyətdə vuruşub, torpağımızı düşmən tapdağından azad etdilər. Tağı Şuşaya nəfəs qədər yaxın bir məsafədə qəlpə zədəsi almışdır. Qəlpə onun ağciyəri tərəfdən girmişdir və çox qan itirməsi nəticəsində Şəhidlik zirvəsinə ucalmışdır. Əsgər yoldaşlarının verdiyi  məlumata görə, qəlpə Tağının bədəninə girdikdə o “yandım ay ana” deyib və yoldaşlarına vəsiyyəti Şuşa qalasını alıb, daha sonra bütün Qarabağı işğaldan azad etmədən geri çəkilməmələrini tapşıraraq əbədi olaraq həyata gözünü yummuş, şəhidlik zirvəsinə ucalmışdır.  Şəhidimiz hər evə zəng edib ailəsi ilə əlaqə saxladıqda nə düşmən mövqesi haqqında, nə də öz mövqeləri haqqında bir kəlmə belə məlumat verməmişdir. “Hər şey qaydasındadır, İnşaAllah evə sağ-salamat gəlim sizə danışacağım çox şey var” – deyərdi. Lakin o bu istəyinə nail ola bilməsədə, tək arzusu olan Qarabağı igid əsgərlərimiz düşməndən azad etdilər. Bir həftədə artıq yaşaya bilsəydi oda bu gözəl günün, qələbənin sevincini bütün Azərbaycan xalqı kimi yaşayacaqdı.

Bu gün Azərbaycan xalqı 30 ilə yaxın həsrətində olduqları torpaqlarımıza ayaq basacaqsa Tağı kimi qəhrəmanlarımızın, şəhidlərimizin, qazilərimizin şücaəti sayəsində ölüm qorxusunu heçə sayaraq arzularından, qanlarından, canlarından keçərək, onların sayəsində buna nail olacaqlar.

---



***Şəkil: Şəhid Tağıyev Tağı Mərdan oğlu***

## Gülşən ADIŞOVA

Vətən nə vaxt çağırır çağırsın, qurd ürəkli övladları ona daima "can" deyəcək. Ölüm ayağında olsa belə, yeməyə bir tikə çörəyi olmasa, əlsiz-qolsuz olsa, bir addım ata bilməsə, əlinə silah alacaq gücü olmasa belə, hay verəcək. Qalxacaq o məhkum olunduğu yataqdan, dondurucu havada üzərində əyləşdiyi soyuq səkidən. Gedəcək. Qoluna taxılı iynələr də, üst-başının pis gündə olması da onu saxlaya bilməyəcək. Vətən çağırır axı! Vətən! Anamız! Bizə əbədi yuva olan torpaqlarımız.

Bütün dünya dağılsın, Vətənimizə zərrə qədər ziyan dəyəcəksə, onu bir azca da olsun incidəcəklərsə. Biz heç onu tək qoyarıqmı?! Biz heç onu tək qoyduqmu?! Əlbəttə, yox! Heç vaxt! Nə keçmişdə, nə indi, nə də gələcəkdə! Qalxdıq ayağa. Kəsdik Vətənimizin hər qarış torpağına uzanan o mənfur əlləri. Çox canlar verdik. Gənc, yaşlı, kəndli, şəhərli, təhsilli, təhsilsiz, yəhudi, rus, talış, tat . . . Hər birimiz qalxdıq ayağa. Getdik o müqəddəs Ananın yanına. Hamımız bir ağızdan "can" dedik ona. Bu günə qədər yedirib-içirdiyi balalarından kömək istədi Vətən! Heç biz onu köməksiz qoyardıqmı?! Belə bir şey mümkündürmü?! Silahlandıq, hamımız, hər nəfərimiz! Ancaq bizi gördükdə qaçmağa siçan deşiyi axtaran, başqalarının yardımı olmadan bir addım atacaq səriştəsi olmayan miskin düşmənə qalib gəlmək üçün bu qədər vətən övladı həddən artıq çox idi. Onları məhv etmək üçün bizim yalnız kiçik bir hissəmiz yetərdi.

Yola saldıq onları. Ən şərəfli səfərə, ən layiqli şəkildə. Pəncərələrindən bayrağımız dalğalanan o avtomobillərə ağırlıq edirdi bu qədər cəsarət, hünər... Bəlkə də, ona görə çətin idi o qəhrəman ailələrlə igid əsgərləri ayırmaq. Nə qədər çətin olsa da, yola düşdü o avtomobillər. Apardı igidlərimizi. Bizə də qaldı xəbər gözləmək. Hər gün, hər gecə...O qara qutuların önündən çəkilmədik. Çəkilə bilmədik. Axı övladlarımız getmişdi. Bilirdik. Bilirdik ki, onların qələbə xəbərlərini eşidəcəyik. Hər top səsi gələndə daha da qürurlanırdıq. Qonşularla xəbərləşirdik : "Eşitdinmi? Top səslərini eşitdinmi? Oğlumdur orda döyüşən. Qardaşımdır orda döyüşən. Yoldaşımdır orda döyüşən. Odur düşmənin bağrına od salan. Odur Vətənimizi qoruyan. Mərmilərin önünə keçib canını bizə sipər edən". Ancaq soruşmağa ehtiyac yox idi. Əlbəttə, eşidirdilər. Hər kəs eşidirdi, hər kəs sevinirdi. Hər top səsində ən azı bir düşmən məhv edilirdi. Biz hər dəfə yeni kənd adı eşidəndə içimiz qürurla dolub-daşırdı. Bu elə bir sevincdir ki, boğazını düyünləyir. Heç bir şey deyə bilmirsən, yeyə bilmirsən, içə bilmirsən. Sadəcə qürur duyursan. Azad olunan ərazilərdən gələn hər yeni xəbəri eşidəndə onu düşünürsən : "O torpaqları azad edənlərin içərisindədir əsgərim. Bəlkə, indi üşüyür. Bəlkə də, acdır. Yaralı da ola bilər. Hətta... hətta, bəlkə, şəhid olub". Sevincin qarışır kədərinə. Ancaq o qürur hissi səni tərk etmir. Niyə mənim oğlum, niyə mənim qardaşım, niyə mənim yoldaşım demirsən. Çünki o buna layiq bilinib. O daşıya bilər bu müqəddəs adı. Ona yaraşır şəhid bayrağı. Ən gözəl yerə gedir o- zirvəyə . Ən uca, ən şərəfli zirvəyə gedir... Ancaq sən heç nədən əmin ola bilmirsən. Sağdırmı, yoxsa şəhid olub?! Sənə qalır gözləmək. Qulağın xəbərlərdə, gözlərin qapıda olur. "İndi daxil olacaq evə, gəlib boynumu qucaqlayacaq". "Bacardıq, ata, bacardıq, ana, bacı, qardaş. Aldıq evimizi, yurdumuzu, yuvamızı. Qovduq qana susamış quduzları. Qırdıq onların murdar əllərini", – deyəcək. Əlləri-qolları olmayacaq, bəlkə. Gəzə bilməyəcək, əlləri sözünə baxmayacaq. Bəlkə də, heç sözünə baxmağa əlləri də olmayacaq. Daha əvvəlki kimi sığallaya bilməyəcək körpəsinin saçını. Ancaq gələcək. Ən əsası, onu atasız qoymayacaq. . .

Ya da....ya da qapı döyüləcək . Sevinəcəksən əvvəl. "Oğlum gəldi",- deyəcəksən. "Gözümün işığı, evimin dirəyi gəldi. Daha onu heç yerə getməyə qoymayacağam. Ölənə qədər bitməz bu

həsrətim. Ölənə qədər doymaram onun varlığından”. Sevinclə qapıya doğru qaçırsan. Olduqca nazik ev geyimində. Hava soyuqdur, amma nə fərqi var? “Axı mənim qəhrəmanım gəlib. Ona qurban olsun mənim canım. O sağ-salamat gəlsin, sonrası vacib deyil”. Sevincli gözlərlə açırsan qapını. Bir neçə rəsmi geyimli adam. Boyları hündür , geyimləri şaxdır. Cılız görünürsən onların qarşısında. Ancaq səni görəndə başlarını aşağı dikirlər . Bayaqkı qamət yoxa çıxır. Sənin qarşında uşaq təki kiçilirlər. Onların gözlərinə baxmaq istəyirsən, ancaq onlar təkidlə gözlərini qaçırırlar. Əlini döş cibinə salır irəlidə dayanan. Hava qaranlıqdır. Bircə həyətdən zəif işıq gəlir. Əlini cibindən çıxarır. Qaranlıqda işıq saçır o bayraq. Üç rəngi də par-par parıldayır. Sənə uzadır bayrağı. Başını hələ də aşağı salıb. Gözlərini qaldırmağa da çəkinir. Əlini uzadıb bayrağı alırsan. Tamaşa edirsən ona. Həyatda onun qədər parlaq olanını görməmisən. “Bu gözəl üçün canını verdi igidim” . Dodaqlarına yaxınlaşdırısan onu. Öpərkən gözlərindən yaşlar axır onun üzərinə. İki damla....Yalnız iki damla yaş. Daha onu üzündən uzaqlaşdırırsan. “Kədərimi görməsin o bayraq ” ,-deyirsən. Axı şəhidin canı bahasına qoruyub onu. Ürəyinə aparırsan əllərinlə. Bundan sonra qəlbin yalnız o bayraq üçün çarpacaq. Başqa heç nə. Yalnız və yalnız onun üçün. Şəhidinin ruhu şad olmaz yoxsa. Qaldırırsan əyilən başını. Daha əvvəlki qədər cılız görünmürsən onların yanında. Əksinə, dağ boyda olmusan. Ən böyük sənsən. Ən məğrur sənsən. Daha onlara yuxarıdan aşağı baxırsan. Çox çətindir danışmaq. Boğazın düyünlənib. Ancaq deyirsən: “Vətən sağ olsun” .

Evdən eşidirlər səsi. Bayıra çıxdıqda səni görürlər əlində bayraqla. Bilirlər gəlişlərinin səbəbini. Diz çökür şəhid anası. Ancaq, and olsun ki, onun qədər ucası olmur o an. Ona çata bilməz heç kəs. Həmin yük dünyanın ən güclüsünə də ağır gələr. Ancaq şəhid anası daşıyır o yükü müqəddəs çiyinlərində. Ən güclü odur, ən uca odur, ən müqəddəs odur. Qəlbinin bir parçasını kəsirsən sanki. Ancaq o hələ də yaşayır. O hələ də dözür. Necə ?! Bu qədər əzaba necə tab gətirir?! Çünki bilir şəhid anası. Bilir ki, bu qan yerdə qalmayacaq. Ən uca amal uğrunda müqəddəs qanını axıtdı. Bilir ki, boşuna ölmədi oğlu. Yox! Yox! Onun oğlu ölməyib. Sağdır. O deyil bayrağa bükülü tabutda gətirilən. O deyil qara torpağa gömülən. O deyil soyuq məzarda uyuyan. Sağdır onun oğlu. Azad olunan hər qarış torpağın sevincindədir onun oğlu. O sevinci yaşayanların qəlbindədir onun oğlu. Vətənin hər guşəsindədir onun oğlu. Bakıdadır, Şəkidədir. İmişlidə, Gəncədə, Culfada, Mingəçevirdə, Gədəbəydədir. İşıqsız daxmalarda, dəbdəbəli saraylardadır onun oğlu. 5 yaşlı körpənin qəlbində, 90 yaşlı nənənin duasındadır onun oğlu. Onun adını bilməyənlərin belə sevgisindədir onun oğlu...

Daha onun adı həminki deyil axı. Onun yeni bir adı var. Heç vaxt unudulmayacaq, dillərdən düşməyəcək, əbədi zirvələrdə qalacaq bir ad: ŞƏHİD. Daha o öz yoldaşları ilə eyni ada sahibdir. Cəbrayıl, İlqar, Orxan, Nurlan deyil onların adları. Onların bir adı var. Ən uca zirvədən də ucadır o ad. Bütün dünyaya dəyər o ad. Alınması ən çətin, dəyəri ölçüyə gəlməz bir ad. O adı almaq üçün getdi oğullarımız. Asan olmadı o adı almaq. Ac qaldılar, susuz qaldılar. Yastıqları Vətən daşı oldu. Yorğanlarını analari yerinə külək çəkdi üzərlərinə. Onlara edilən dualar isitdi əllərini. Bütün hamımızın əziyyətini çəkdi onlar. Ancaq yorulmadılar, bezmədilər. “Daha gücüm qalmadı”,-demədilər. Azərbaycan oğlunun gücü tükənərmi heç?! Belə bir şey ola bilərmi?! Əlbəttə, yox. Qalxdılar ayağa. Ayaqlarında ağır çəkmə Vətənin başı üzərindəki qara buludları dağıtmağa getdilər. Dağlara qalxdılar hünərlə...Heç də asan olmadı o dağlara qalxmaq. Getdikcə çətinləşirdi addım atmaq. Ancaq hər çətinlikdə daha da qüvvətlənirdi igidlər. Daha möhkəm yapışırdılar o sərt qayalardan... Hər dəfə başlarını yuxarı qaldırdıqda onları görürdülər. Yoldaşlarını. Qardaşlarını. Çingiz, Mübariz, Raquf, Polad onları səsləyirdilər zirvədən. “Siz bacararsınız! Siz bacarmalısınız! Bu ölkə sizə bel bağlayıb. Qırmayın onların inamlarını. Qaldırın zəfər bayrağını!”

Qalxırdı igidlər. Hər çağırışda daha inamla. Sonsuz qətiyyətlə. Və budur: çatırdılar zirvəyə. Bircə addım qalıb ora qalxmağa. Bir əl uzanırdı onlara sarı. Qaldırırdı onları ən yüksəyə. Atılırdı döyüşə igidlər. Vurub-dağıdırdılar itlərin yuvalarını. Məhv edirdilər onları. Yerə sərirdilər onların murdar bədənlərini. Ancaq...ancaq unudurdular düşmənin onlar kimi igid olmadığını. Arxadan

yaxınlaşırdı mənfur köpək... Yıxılırdı qəhrəman. Şəhadət gətirirdi. Gözlərini qapayırdı bu dünyaya. Səslər kəsilirdi. Elə bilirdi sondur bu. Əslində isə, əsl həyat elə o andan başlayırdı...

Birdən.....birdən kiçik bir əl hiss edirdi qolunda. Zərif əlilə onu oyatmağa çalışırdı kimsə. Kirpiklərini aralayırdı qəhrəman. Ancaq gün işığı gözlərini açmağa imkan vermirdi. Qolunu gözünün üstünə yaxınlaşdırıb açırdı gözlərini. Hər-tərəf al-əlvan çiçəklərlə doludur. Yaşıl çəmənlik, parlaq səma, yanında da balaca sevimli bir qız. Əllərində bir dəstə çiçək vardı. Tez dikəlib ətrafa baxır igidimiz. Bura necə də gözəldir. Sanki cənnətdədir. Yaşıl don geyinmiş dağların əhatəsindədir. Ətrafa tamaşa etdikdən sonra dönüb balacaya baxır. O da "Əmi, tez ol, tələsməliyik. Axı səni gözləyirlər", – deyir. "Kim məni gözləyir? Axı haradır bu gözəl məkan?" . "Gedənlər. Onlar hamısı getmək üçün səni gözləyirlər". "Kimdir axı bu gedənlər?",- demək istəyəndə onları görür. Döyüş yoldaşlarını. İçlərində tanımadıqları da var. Hər birinin əlindən balaca bir uşaq tutub. Parlaq səmanın altında hamısı o qədər gözəl görünür ki... "Tələsməliyik! Bir az da geciksək, mənə acıqlanacaqlar. Xocalıda olanda da anamgil mənə acıqlanardı. Həmişə belə gecikirdim. Elə o gün də gecikmişdim...." -deyir. Parlaq gözlərini bir anlıq yerə dikir. Sonra gülümsəyərək yenə başını qaldırır. "Burdakı əmilər dedi ki, siz Xocalını alacaqsınız. Onda biz yenə ora qayıda bilərikmi? Mən ordakı evimizdən ötrü çox darıxmışam". Qəhrəmanımız anlayır harda olduğunu. Gözləri yaşarır əvvəlcə, sonra sonsuz bir qürur axır qəlbinə. O bacarıb. Bu zirvəyə gəlib çata bilib. Silir göz yaşlarını. "Qayıda biləcəksiniz ,-deyir,- daha Xocalının üzərində qara buludlar olmayacaq. Orda hər gün bahar olacaq. Hər gün küçələrdə oyun oynaya biləcəksiniz". "Doğrudan?!". "Doğrudan?!". Gülümsəyir balaca. Ayağa qalxıb əlini ona uzadır. İgidimiz də ayağa qalxıb onun bapbalaca, yumyumşaq əlindən tutur. Yoldaşlarının yanına gəlir. Üzləri Günəşdən də nurludur. Gülümsəyir onlara baxıb. "Biz bacardıq", - deyir. Başları ilə təsdiq edirlər. "Gedək,-deyir qarşıda dayanan,- daha onları gözlətmək olmaz" . "Gedək".Onlara qoşulur qəhrəmanımız. Dağların arası ilə Günəşə sarı addımlamağa başlayırlar. Əbədiyyətə doğru... Daha heç bir yerləri ağrımır. Ayaqlarını incitmir ayaqqabıları. Üzlərini, əllərini dondurmur hava. Axı sevir onları bütün el,oba...


SİZİ HƏR GÜN
YAŞADIRIQ VƏ ANIRIQ
2783
BİZ ONLARIN HAMISINI
TANIMASAQ DA,
ONLARIN HAMISINA
BORCLUYUQ.
İGİDLƏRİMİZİ
ANIRIQ
04.12.20
12:00
Azerbaijan
ŞƏHİDLƏRİMİZİ

*Ayla ZƏKİYEVA*

Vətən-sözlərə, cümlələrə sığmayacaq qədər böyük anlayışdır. Vətən anadır. Vətən namusdur. Vətən candır. Vətən Azərbaycandır. Vətən bizim doğma diyarımız, Vətən bizim beşiyimiz, Vətən bizim məzarımızdır. Vətən sevgidir. O sevgi ki, ana bətnindən dünyaya göz açdıqdan məzara gedənə qədər qəlbimizdə o sevgi ilə yaşayırıq. Öləndə belə "Məni doğma torpağımda dəfn edin",-deyərək bizimlə birlikdə məzara gedən sevgidir. Və bu gün bu sevgi bütün Azərbaycan xalqını öz qanadları altına alaraq tək bir yumruq halında birləşdirib. Bu yumruq "Qarabağ uğrunda canım fəda",-deyərək nəfəs alır.İllər boyu həsrətlə baxdığımız, qəlbimizə köz basaraq dözdüyümüz bu ağrı-acının bir gün bitəcəyinə, doğma yurdumuza ayaq basacağımıza daim ümid edirdik. Və bu gün biz bir daha şahidi olduq ki, ümid həmişə var.

Bu gün Azərbaycan xalqı sevinc, qürur və fərəh göz yaşlarına boğulub. Bu gün bizim qələbəmizdir. Bu gün bizim günümüzdür. Bu gün bütün Azərbaycan xalqının yenidən doğduğu gündür. Bütün bunlar isə tarix yazan sərkərdə, Ali Baş Komandan İlham Əliyev və rəşadətli Azərbaycan ordusunun səyləri nəticəsində baş verdi. Qürur mənbəyimiz olan əsgərlərimizin göstərdikləri səriştələr nəticəsində bir daha bütün dünyaya xalqımızın gücünü, vətənə olan sevgimizi sübut etdik. Bu qələbəni bütün Azərbaycan gözü yaşlı qalmasın deyə öz ailəsini gözü yaşlı qoyan şəhidlərimizə borcluyuq. Bu qələbəni ölümdən qorxmayan, amma öldürmədən ölməkdən qorxan igidlərimizə borcluyuq. Sizin haqqınızı heç bir zaman ödəyə bilmərik. Biz bu Vətən müharibəsində oğullarımızın qəhrəman ruhunu gördük. Onların qəhrəmanlıqları dillərə dastan oldu, silinməz mürəkkəblə tarixə yazıldı.Belə qəhrəmanlarımız saysız, hesabsızdır. Bu Vətən müharibəsinin əsasını "İyul əməliyyatları" zamanı bu yolda gözünü qırpmadan canını qurban verən şəhidlərimiz qoydu. Bunlardan biri də unudulmaz general Polad Həşimov oldu. Onun şəhadəti cəmiyyətimiz üçün çox ağır itki idi. General yaddaşlarda xeyirxah, zəhmətkeş, vətənpərvər və peşəkar hərbiçi kimi iz qoymuşdur. 2014-cü ilin 25 iyununda Azərbaycan Prezidentinin sərəncamı ilə polkovnik-leytenant Polad İsrayıl oğlu Həşimov 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunub. 2019-cu ildə isə general-mayor rütbəsinə layiq görülüb. 2016-cı ilin aprel döyüşləri zamanı Talışdağ istiqamətində mövqeləri gücləndirərək açıq döyüşə girib və düşmən tərəfin onlarla əsgərini məhv etmişdi. Onun tək arzusu isə Qarabağın azad etmək idi. Biz həmişə görmüşük ki, zabitlər əmr verir və əsgərlər irəli atılır. Amma biz onun şahidi olduq ki, Polad Həşimov özü irəlidə getdi və əsgərlərini ardınca apardı. O, şəhid olduqdan sonra bütün Azərbaycan xalqı və ordusu ayağa qalxıb onun getdiyi yolu davam etdirərək gedib Qarabağa çıxdı və Polad Həşimovun qisasını aldılar.

Belə igidlərdən biri də 19 yaşlı Dövlətzadə Cəbrayıldır. Döyüş yoldaşları bildirirlər ki, Cəbrayıl və silahdaşları düşmənlə üz-üzə gələrkən onlara "Siz geridə qalın, siz evlisiniz, mən subay",-deyərək qayıtmağı tələb edib. Özü 10-a yaxın erməni quldurları ilə təkbaşına əlbəyaxa döyüşə girib. Düşmənin bir generalını və polkovnikini təkbaşına əlləri ilə boğaraq öldürüb və özü də şəhid olub.

Cənab prezidentimiz İlham Əliyevin də vurğuladığı kimi, həqiqətən də, Şuşasız işimiz yarımçıq qalardı,Şuşa Qarabağın gözüdür. Elə bu səbəbdən də, Şuşa uğrunda gedən döyüşlər daha ağır və çətin idi. Lakin bu yolda igidlərimiz o qədər qətiyyətlə irəliləyirdilər ki, sözlərlə ifadə etmək mümkün deyil. Şuşa uğrunda gözünü qırpmadan vuruşan igidlərimizdən biri də ll Qarabağ müharibəsi qazisi Alik Məmmədovdur. O, Şuşa uğrunda döyüşlərdə Şuşaya kanatla qalxdıqlarını bildirdi. Səbəbi isə, onların sıldırım qayalara dırmaşaraq, bıçaqla Şuşa üçün gələcəkləri heç vaxt

düşmənin ağlına gəlməzdi. General Hikmət Mirzəyevin peşəkər hərbi fəaliyyəti nəticəsində burda uğur əldə etdiklərini bildirdi. "Biz qayalara dırmaşıb əlbəyaxa döyüşə girdik. Təxmini desəm həmin an 40-a yaxın ermənıyə bıçaqla zərbə yetirmişəm. Onlar o qədər həyəcan, təşviş içində idilər ki, hətta, özlərinə belə atəş açmağa başladılar",-deyə igidimiz döyüş təəssüratlarını bölüşmüşdür.

44 günlük müharibə bizə oğullarımızın qəlbindəki vətən eşqini sübut etdi. Qürur mənbəyimizə çevrilmiş igidlərimizdən biri də 18 yaşlı qazimiz Nəsibov Fərid Teymur oğludur. İgidimiz Füzuli istiqamətində gedən döyüşlərdə raket zərbəsi ilə yaralanmışdı. Qaçmağın mənasın olduğunu görüb oradaca qalıb. Raket ona dəyərək onu 100 metr neytrala atmışdı. Bütün bədəni qəlpələrlə dolu idi. Əli ilə öz bağırsaqlarını yığıb silahdaşlarına tərəf irəliləməyə çalışan bir igiddən danışırıq biz. Onların haqqı ödənərmi?

Füzuli, Hadrut, Zəngilan, Kəlbəcər, Qubadlı uğrunda gedən gərgin döyüşlərdə iştirak edərək oktyabrın 23-ü şəhadətə qovuşan digər bir igidimiz isə Xudayar Yusifzadədir. Onu hər kəs oxuduğu “Vətən yaxşıdır” mahnısı ilə qəlbimizdə əbədi iz qoydu. Bu ifadələr onu necə döyüşə ruhlandırdısa, bizim yaddaşımızda onun əbədi xatirəsi olaraq həkk olundu:

“Deyirlər bülbülə çəmən yaxşıdır,
İnsan üçün laləzar,vətən yaxşıdır.
Şair,sorma vətən nədən yaxşıdır?
Adı gəlcək könlüm dastana döndü”

Oktyabrın 3-ü Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olan Feyzullayev Beyrək Seyfullah oğlu Xüsusi Təyinatlı Qüvvələrin giziri olmuşdur. İgidimiz sözün əsil mənasında adının haqqını verərək 30-a yaxın erməni əsgərini məhv edib. Gülləsi bitdikdən sonra isə süngü-bıçaqla daha 5 ermənini öldürmüşdür. Qarın hissəsindən yaralı olmasına baxmayaraq, 1 saatdan çox döyüşməyə davam edərək qəhrəmancasına şəhid olmuşdur.

İgidimiz Əliyev Kərimin müqəddəs zirvəyə ucaldığı gün 81 erməni əsgərinin cəsədi var idi. Yaralı halda dayanmadan döyüşmüş və düşmənə əsir düşməsin deyə özünü partladaraq öldürmüşdür. Bu partlama nəticəsində isə daha 4 erməni əsgərini məhv etmişdir. Hətta erməni əsgəri öz müsabihəsi zamanı söyləmişdir: “Dəhşətdir, güllə dəyir yıxılırlar, yenidən ayağa qalxaraq qan axa-axa üstümüzə doğru gəlirdilər”. Buna səbəb onların qəlbində vətən eşqi idi.

“Azərbaycan dedik də, doğrudan da, şir ürəkli vətən uğrunda canını verməyə hazır olan gənclər diyarı nəzərdə tutulur”,- desək yanılmarıq. Bir ata və oğlunun eyni anda, eyni yerdə vətən üçün geri addım atmadan düşmənlə çarpışması buna bariz nümunədir. Bəli, onlar mayor Çingiz Qəhrəmanov və Rəşad Qəhrəmanzadədir. Ata və oğulun eyni amal uğrunda qorxmadan döyüşməsi insana o qədər gözəl emosiyalar bəxş edir ki. Məhz bu səbəbdəndir ki, qürur,fərəh və sevinc hissimizin həddi-hüdudu yoxdur. Uzun illər sonra Laçının Güləbird kəndinə ayaq basan igidlərimiz məhz onlardır. Çingiz Qəhrəmanzadə, oğlu və əsgərləri olan avtomobil minaya düşür. Avtomobildən canlarını qurtardıqları zaman düşmən tərəfdən atəşə tutulurlar. Çingiz yaralanır, buna baxmayaraq öncəliyini oğlunu və əsgərlərini qorumaq olur.

Zərdab rayonunun bizə bəxş etdiyi igidlərin də sayı-hesabı yoxdur. Onlardan biridə Müsüzadə Siruz Araz oğludur. Müharibə başlayan gündən axıra qədər döyüşdə iştirak edən igidimiz bir dəfə Cəbrayılda kəllə-beyin tramvası alaraq xəstəxanaya yerləşdirilmişdir. Lakin silahdaşlarından uzaqda olmağa dözməyərək 3 gün sonra yenidən döyüş meydanına atıldı. “Şuşa əməliyyatı” zamanı Daşaltı kəndinin yanı ilə dağa qalxarkən yoldaşı yaralanır. Bir qolunda yoldaşı, bir əlində silahı qətiyyətlə yoluna davam edirdi. Çünki bu yola birgə çıxmışdılar. Bu yolda çiyin-çiyinə savaşmışdılar. Onu gerisində buraxmağa qəlbi yol verə bilməzdi. Onlar irəlilədikcə azğın düşmən minaatanlarla alov yağdırmağa davam edirdi. Bunlardan biri onların olduğu yerə düşdü. O, yaralı dostunu yerə uzadaraq özü onun üzərinə yıxıldı ki, onu qoruya bilsin.Buna nail oldu amma özü ayağından, belindən və qolundan qəlbə yaraları almışdı. Özünə ilk tibbi yardımı göstərərək yoldaşını da götürərək yoluna davam etdi və 3 gün Şuşa da dağln başında mühasirə də qalmışdılar.

Daha sonra isə tapılaraq xəstəxanaya çatdırılmışdırlar. Azərbaycan xalqı qəlbindəki insanlıq, dostluq və mərhəmət hissi ilə tarix boyu bütün çətinliklərə sinə gərmişdir. Siruzun bu şücaəti bunu bir daha sübut etmişdir.

İkinci Qarabağ müharibəsində təkcə qəhrəman igidlərimiz deyil, cəsur qadınlarımızda ön cəbhəyə qədər gedib çıxmışdır. Vətən yolunda canını verən, İkinci Qarabağ müharibəsinin ilk qadın şəhidi adını alan hərbi tibb qulluqçusu Arəstə Baxışovadır. Qəhrəman qadınımız yaralı hərbiçilərimizi döyüş meydanından çıxararkən şəhadətə qovuşmuşdur.

Şuşa qalasını fəth edən general-leytenant Hikmət Mirzəyev, general-mayor Mais Bərxudarov, şəhid kapitan Ceyhun Həsənov, Cəbrayıla qürur mənbəyimizi-üçrəngli bayrağımızı sancan şəhid baş leytenant Allahyar Telmanlı, 18 yaşlı şəhidlərimiz Xəyyam Daşdəmirov və Şirvani Həsənağa, yüzlərlə ermənini məhv edən, bir çox əsgərimizi xilas edən şəhid gizir Əli Quliyev, şəhid gizir İlqar Zeynalov kimi yüzlərlə igid oğullarımızın adını sadalamaq və onların qəhrəmanlıq dastanlarından danışmaq olar. Hər şeyi sizə borcluyuq. Siz və cənab prezidentimiz İlham Əliyevin tarixə yazdığı bu qələbə yaddaşlara əbədi həkk olundu. Tarix bizi ən azğın, ən qəddar düşmənlə qarşı-qarşıya gətirdi. Döyüş meydanında hünər göstərə bilməyib günahsız insanları, dinc əhalini hədəf alan, əlləri körpələrin, yaşlıların, qadınların qanına bulanmış düşmən. Amma igidlərimiz hər bir zaman onların cavabını döyüş meydanında verərək onlara ağır zərbələr vurmuşdur. Biz bu yolda çox igidlərimizi itirdik. Amma necə deyərlər: "Torpaq qanla qarışanda Vətəndir", "Bir ölüb,min dirilərik", "Bu xalqın on milyonlarla Poladı, Mübarizi var". Həqiqətən də, belədir. Beşikdəki körpəsindən yaşlısına qədər hər birimizin qəlbi Qarabağda döyünür. Bu qələbə xalqımızın birliyi və həmrəyliyi bahasına əldə edilən qələbədir. Bu gün hamı doğmadır. Birimizin acısı 10 milyon xalqın acısıdır.30 ilə yaxın müddətdə qəlbimizə dağ çəkmiş bu işğalçıların,mənfur, qaniçən düşmənin də öhtəsindən gəldik. Atalarımızın dediyi kimi "Pis günün ömrü az olar və el bir olsa dağ oynadar yerindən". Qarşıda bizi vətənimizin dilbər guşəsi olan Qarabağda möhtəşəm günlər gözləyir. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!

Şəhidlərimiz, qisasınız alındı. Artıq rahat yata bilərsiniz! Ruhunuz qarşısında baş əyirik! Şəhid anaları, şəhid ailələri haqqınızı halal edin!



***Şəkil 1:* Birinci Ordu Korpusunun komandiri, general-mayor Hikmət Həsənov, general-mayor Mayis Bərxudarov, general-mayor Hikmət Mirzəyev**



***Şəkil 2. Şəhid Xəyyam Daşdəmirov***



***Şəkil 3. Şəhid Şirvani Həsənağa***

*Ülviyyə HƏSƏNZADƏ*

Eşidəndə ki, Qarabağ mövzusunda esse yazmaq lazımdır. Düşündüm ki,öz həyatımı qələmə alsam, daha yerinə düşər. Axı mənim bütün həyatım Qarabağla bağlı idi. 30 il öncə Qarabağın gözəl guşəsi olan Şuşa şəhərində qayğısız, dərdsiz bir körpə olaraq dünyaya gəlmişdim... Nə biləydim ki, məni qarşıda nələr gözləyir?! Haradan biləydim ki, yaşadığım həyatı Vətən həsrəti ilə yurdsuz-yuvasız bir didərgin kimi keçirəcəyəm. Axı hər bir ananın övladı üçün gözəl arzuları - onun ilk yerişini, ilk sözünü, ilk cümləsini həsrətlə gözləyir. Mənim ilk eşitdiyim səs top səsi, mərmi səsi, ilk hiss etdiyim duyğular - qorxu, həyəcan, səksəkə olmuşdu. Anam atamı ön cəbhədə qoyub,qardaşımla məni sinəsinə basaraq qəsbkar erməni təcavüzündən xilas edə bilmişdi.

Məcburən köçmüşdük, həm də yaşam üçün mübarizə aparmağı da məcburən öyrənmişdik...

İlk günlər yatmağa yerimiz yeməyə çörəyimiz yox idi ,ancaq,çox şükür sağ idik.Amma,hər kəs mənim kimi "şanslı"deyildi.:-Şaxtalı havada donanlarımı deyim?hələ doğmamış anasının qarnından çıxardılanlarımı?yoxsa mismarla divara bərkidilən həm yaşıdlarımı deyim?!Erməni murdarların ağlasığmaz hansı vəhşiliyini deyim?! Atamın, əmimin, dayımın onun kimi neçə igidlərin torpağımızın ərazi bütövlüyü üçün çalışmasına baxmayaraq, biz torpaqlarımızın 20 faizini itirdik.Yağı düşmən hiylə ilə mənim doğma Şuşamı və mənim uşaqlıq çağlarımı əlimdən aldı.

İllərlə uşaqlığı əlindən alınmış,hər zaman erməni gələr səksəkəsi ilə böyüdük..

Bakıda müvəqqəti məskunlaşdıq və doğma yurdumun adını daşıyan Şuşa məktəbində təhsil alırdım. Bakı məktəblərindən biri daxilində 6 otaqdan ibarət olan məktəb kimi fəaliyyətinə icazə vermişdi. Bəzən bu məktəbin "əsl" şagirdləri bizi xor görürdülər. Məktəb illərim də niskilliidi.Ancaq müəllimlərimiz bizə Qarabağı bir an belə unutdurmadı. Tədbirlər keçirirdik. Hər zaman ağlaya-ağlaya şeirlər deyirdim. Məktəbimiz hər bir şagirdini milli vətənpərvər ruhda böyütdü. Təqvimdə hər ay qan yaddaşımıza yazılan hadisələr vardı. Bu tarixləri istəsəm də unuda bilməzdim.

28 il sözdə qoyulan Atəşkəsi erməni hər gün pozur, neçə-neçə canlar Vətənə qurban gedirdi.

Nəhayət, Ali Baş Komondanımız İlham Əliyevin əks-hücum əmri bir çox hərbçilərlə birgə,məktəbimizdən xeyli vətən həsrəti çəkmiş məzunlarımız, ələ düşmüş bu fürsəti dəyərləndirməyə, Vətəni yağılardan geri almağa canla-başla yollandılar. Bu qəhrəmanların içində mənim doğmam Baş Leytenant Nurlan Həsənov Nadir oğlu da vardı...

O, 1991-ci il 19mayda Şuşa şəhərində dünyaya göz açmışdı.

Uşaqlıqdan birlikdə eyni acıları yaşayaraq, Vətənimizin azad olması gününü həvəslə gözləyirdik.

Nurlan Həsənov 2012 ci ildə ali təhsilini başa vuraraq,vətəndaşlıq borcunu yerinə yetirmək üçün Vətənin keşiyini çəkməyə yollanmışdır. 3 ay Naxçıvanda əsgər kimi ,daha sonra 1il 6ay Gəncədə Baş Leytenant vəzifəsində xidmət etmişdir

Onun üçün "Vətən" hər şeydi."Şəhidlik" isə ölümün ən ali mərtəbəsi idi..Sanki hələ bələkdə ikən çıxdığı yurda çiyinlərdə qayıdacağını hiss edirdi.

2020 ci ilin 2-ci Qarabağ müharibəsinin hələ astanasında,ailəsindən xəbərsiz könüllü olaraq hərbiyə yazılmış,onu ermənin əlindən qaçıran anasına sarılmadan,iki azyaşlı körpəsini qoxlamadan sentyabrın 21-i təlimə yollanmışdır.Sentyabr ayının 27-si **Nurlan Həsənov** və onun kimi yüzlərlə əsgərimiz tarix yazmaq üçün yola düşdülər. Nurlan bir neçə kəndimizin alınmasında qəhrəmanlıq göstərərək vuruşmuş,bir neçə ermənini məhv etmişdir.Ancaq oktyabrın 1-i gecə saatlarında Füzuli şəhərinin alınması uğrunda gedən döyüşdə ,atılan mərmidən qopan qəlpələrdən biri onun qarın boşluğuna,digəri isə şah damarına dəyərək bir neçə dəqiqə ərzində onu"Şəhidlik"zirvəsinə ucaltmışdır....

Ölmədən öncə yoldaşlarına: "Şəhid olacağımı bilirəm, kaş Şuşanı görəydim" demişdir. Belə bir igid, belə bir oğul son nəfəsinədək Şuşanın arzusunda olmuşdur. Ondan geriyə isə dillərdə igidliyi, gülən şəkilləri qaldı...

Məktəbimizin digər şəhid məzunu **Arəstə Baxışova** isə şəhid olmuş ilk qadın tibb bacısı idi. O yaralı hərbiçilərimizi döyüş meydanından çıxararkən şəhid olmuşdur.Onun da 2 azyaşlı övladı olmasına baxmayaraq cəbhəyə könüllü olaraq getmiş və anasına övladlarını əmanət edərək demişdir: "Ana hərənin bir qisməti var. Əgər mən gedib Vətən uğrunda şəhid olacağamsa , o mənim başımın ucalığıdır!"

Nurlan Həsənov, Arəstə Baxışova və yüzlərlə qəhrəmanlarımız bizə,vətənin hər şeydən dəyərli olduğunu öyrətdi.

Yavaş-yavaş Qarabağımız yağı düşməndən alınırdı.

Hər dəfə cənab prezident çıxışında azad olmuş torpaqlarımızın adını açıqlayanda gözlərim yaşla dolurdu.Ancaq bir çıxış varki,onu heç zaman unuda bilməyəcəm. O çıxış 8 noyabr Şuşanın işğaldan azad olma xəbəri idi. Bu xəbəri eşidəndə sanki o iki yaşlı körpəyə çevrildim. Ancaq ordusuna güvənən,artıq ermənidən heç qorxmayan mərd bir qızcığaza... İçimdə qəribə hislər yaşadım. Mən hələ indiyə qədər belə sevinc yaşamamışdım. O necə gözəl hiss idi... Yurdumun, yuvamın qoxusu gəldi burnuma, sanki uşaqlığımı yenidən yaşayacağmışam kimi bir ümid doğdu içimdə...

Təbii ki, biz unutmamalıyıq bu torpağın hər daşında, torpağında uşaqların yetim qalan atalarının, daha gəncliyə yeni addım atan oğulların qanı var. Bizim də borcumuz odurki,qan bahasına alınmış torpaqları gözümüz kimi qoruyaq. Çünki bu torpaq bizimdir, Qarabağ Azərbaycandır!!!



*Şəkil: Baş Leytenant şəhid Nurlan Həsənov Nadir oğlu*

**Şayəstə AĞAYEVA**

27 sentyabr 2020-ci il səhər saatlarında «II Qarabağ müharibəsi» başlanmışdır.

Hal hazırda Azərbaycan xalqın igir esgərləri tarix yazır. Üstündən illər , əsirlər keçsə belə bu tarixi yazan Qəhrəmanlarımız unudulmaz. Vətən uğrunda canından keçən igid əsgərlərimiz var. Onlar ən müqəddəs və şərəfli olan Şəhidlik zirvəsinə yüksəlmışdilər. Şəhidlər zirvəsinə qalxmaq hər kəsə nəsib olmur. Bu zirvəyə təkcə cəsarətli, qeyrətli, şərəfli və müqəddəs insanlar yüksəlir. Şəhidlik zirvəsinə yüksələn insanlar ölmürlər, onlar ölümləri ile tarix yazırlar. Şəhidlər bizim fəxrimizdir, qürurumuzdur.

«Biz bu dərdi, bu qəmi daim qəlbimizdə saxlaycağıq. Ancaq eyni zamanda bu Şəhidlərin qəhrəmanlığı Azərbaycan xalqı üçün, Azərbaycan gəncləri üçün örnək olub. Bundan sonrada örnək olacaqdır. Mən tam əminəm ki Azərbaycanın bu günlük nəsli də, gələcək nəslləri də bu Şəhidlərin qəhrəmanlığından nümunə götürəcəklər. Azərbaycan xalqının milli azadlığını qorumaq üçün, Respublikamızın müstəqilliyini qorumaq üçün daim mübarizədə olacaqlar. Daim qəhrəmanlıq nümunələri, vətənpərvərlik nümunələri göstərəcəklər.»

Ümummilli lider Heydər Əliyev.

Xalq şairi Bəxtiyar Vahabzadə Şəhidləri belə vəsf etmişdir:

«…Qatil gülləsinə qurban gedirkən,
Gözünü sabaha dikdi Şəhidlər!
Üçrəngli bayrağı öz qanlarıyla,
Vətən göylərinə çəkdə Şəhidlər.»

Bu müharibə xalqımızın üçün Vətən müharibəsidir. Bizim igid, cesarətli esgerlərimiz Vətən Topaqlarını işğaldan azad edir, döyüş meydanında tarixi ədaləti bərpa edir.

Bu essedə, sinif yoldaşım, Şəhid Röyal İbrahimov Qulam oğlu haqda yazmaq istiyirəm.

Röyal İbrahimov fevralın 19 2002-ci il Lənkəran rayonu Vel kəndində dünyaya gəlmişdir.

15.10.2004-ci ildə baxçaya getmişdir.

15.10.2007-ci ildə Lənkəran rayonu A.F.Xəlilov adına Vel kənd orta məktəbində 1-ci sinifə getmişdir.

14.06.2018-ci ildə Vel kənd tam orta məktəbin Məzunu olmuşdur.

15.10.2018-ci ildə Peşə məktəbinə daxil olmuşdur.

14.06.2020-ci ildə hərbi xidmətə çağırılmışdır.

Röyal İbrahimov hemişə nümunəvi şagir olub. Müəllimlərin sevimli sagirdi və sinif yoldaşlarının fexri idi. Hemişə deyib-gülürdü, çox pozitiv,səmimi, aktiv idi, hamımıza dəstək olurdu, hər işdə kömey olurdu. Məktəbin bütün uşağlarına örnək olurdu. Məktəbdə tədbirlərdə iştrak edirdi, bir çox rol aparırdı və çox gözəl bacarırdı bu kimi işləri. Həm dərslərində, həm də tədbirlərdə çox uğurlu idi. Bir çox rəsimləri var, 2018-ci ildə məktəbi qutardığına baxmayaraq, bu gündə çəkdiyi rəsmlər və əl işləri sinifdədir. Məktəbin, sinifin hər tərəfi Röyalı xatırladır. Məktəb illərimiz çox marağlı və aktiv keçdi Röyal sahəsində. 2018-ci ildə baş tutan Son zəngi özü təşkil etmişdir. Çox şən keçdi və bütün məktəbin məzunlarına xoş xatirələr bəxş etdi.

Təkcə məktəb illərində yox, hemçini Peşə məktəbində də ferqlənmişdir. Hemişə ki kimi aktiv və nümunəvi tələbə olmuşdur.

05.11.2020-ci ildə İbrahimov Röyal cəbhədə gedən döyüşlərdə qəhrəmancasına ŞƏHİD oldu. Şuşa uğrunda canını fəda etdi və ŞƏHİDLİK ZİRVƏSİNƏ yüksəlmişdir. Vel kend tam orta məktəbin şagirdləri adından Röyalın ailəsinə və yaxınlarına səbr arzulayırıq.

Və sonunda Azərbaycan qalib gəldi! 10 noyabr 2020-ci il tarixi Azərbaycan tarixinə qələbə günü kimi düşdü.

Azərbaycan özünün hərbi və siyasi gücünü sübut edərək tarixi qələbə qazandı!

10 noyabr 2020-ci il 30 ildir gözü yaşlı olan Vətənimizin üzü güldü! 10 noyabr 2020-ci ildə çirklənmiş torpaqlarəmızda güllər açdı! Xalqım gözün aydın olsun! Şəhid Anası rahat nəfəs al, oğlun toqpaqlarımızı qaytardı, qanı yerdə qalmadı! Yurdlarından əsir düşənlər, sevinin, evinizə qayıdırsız!

Azərbaycana Qələbə yaraşır. Biz, Azərbaycanlılar, harda olursaq olaq, bütün dünyaya gücümüzü göstərdik!

İndi Şəhidlərin ruhları bir mahnıda olduğu kimi Vətən göylərində azad gəzirlər, Şəhidlərimizin ruhları Şaddır! Şəhidlərin arzularının bir çoxu həyata keçmişdir. Şəhidlər Azərbaycan suverenliyini təmin ediblər. Ölkəmizin iqtisadi, hərbi gücü getdikcə artır.

Şəhidlərin uğrunda canlarını fəda etdikləri müqəddəs amallar işğalçılardan azad edildi! Vətənimizin Şəhid qanı ilə qazanəlam Qələbə, azadlığım göz bəbəyi kimi qorumağı və möhkəmlətməyi həyatda əsəd məüsədimizdir.

Bu yolda qanı tökülən, ŞƏHİD olan əsgərlərimizə Allah rəhmət eləsin. Haqları ödənməz, o dünyada ruhları şad olsun.

ŞƏHİDLƏRİN, igid əsgərlərimizin sayəsində QARABAĞ alındı.

Və müharibə bitdi! Gözün aydın olsun Azərbaycan xalqı! Bü gündən etibarən dünyanı bir başqa rəngdə görməyə, yaşamımızı bir fərqli ovqatla davam etdirməyə başlayırıq. Yeni həyat başlayır. Qələbə qürurunun başımızı ucaltdığı, xəşbəxtlik hisslərimizin sinəmizə sığmadığı bir günlə başlayan Yeni Həyat. Yaşa Azərbaycan Xalqı! Sən ən böyük xoşbəxtliyə layiqsən!






***ŞƏHİDLƏRİMİZİ EHTİRAMLA YAD EDİRİK!***